Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

4
MART
2020-ci il

№ 39 (4170)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

■ səh. 9 ■

# ƏSƏDİ ÇÖKDÜRƏN TÜRKİYƏ SİLAHLARI ERMƏNİLƏRİ XOFLANDIRAN YENİ MOTİV KİMİ - AZƏRBAYCAN BUNLARLA ÜSTÜMÜZƏ GƏLSƏ...

Prezident Goranboy və Şəmkir rayonlarında mühüm infrastruktur açılışlarında... ■ səh. 2 ■

Prezidenti Xətainin heykəlinin yeni məkanına aparan motiv - dövlətçilik tarixinə ehtiram nümunələri... ■ səh. 3 ■

Azərbaycanda koronavirusla mübarizə çərçivəsində əsaslı addımlar davam edir ■ səh. 4 ■

KTMT-nin konfransında Belarus səfiri Ermənistanın "kürkünə birə saldı" - Azərbaycanla KTMT... ■ səh. 5 ■

Paşinyan iqtidarına yeni ictimai qınaq - ölkə Sorosun oyuncağına çevrilir... ■ səh. 13 ■

Ermənistanın azərbaycanlılara qarşı soyqırımlar tarixi ■ səh. 11 ■

Bəzi xəstəliklər üçün pulsuz dərmanların yoxa çıxdığı xəstəxana və poliklinikalar... ■ səh. 15 ■



■ səh. 14 ■

## Məktəblər ona görə bağlanmadı ki, kimlərsə buna istirahət və gəzinti şansı kimi baxsın...





Azərbaycan neftinin Avropaya yeni maraqlı çıxış marşrutu - məşhur Odessa-Brodı kəməri «dirildilir» ■ səh. 12 ■

Paşinyan İrəvan küçələrində şəxsən buklet paylamağı da özünə rəva gördü - vədlər doğrulmayanda, xalq üzə duranda... ■ səh. 10 ■

Koronavirusla birgə dövlət və ictimai mübarizənin Azərbaycan modeli... ■ səh. 6 ■

■ səh. 8 ■ Nədən həm də "Koronavirussuz ada" olmayaq...



■ səh. 5 ■ "Qarabağ həmsədrləri" Türkiyəyə niyə getmişdilər - erməni versiyası və ekspert rəyləri...



■ səh. 3 ■ Ankarada Xocalı abidəsinə nəhayət qərar verildi



■ səh. 7 ■ Uzaq İdlib proseslərinin perspektivdə Qarabağ danışıqlarına təsirləri...



■ səh. 15 ■ Kütləvi kitabxanaların müvəqqəti bağlanması - növbəti səmərəli antivirus tədbiri...



# Prezident Goranboy və Şəmkir rayonlarında mühüm infrastruktur açılışlarında...

**Prezident İlham Əliyev martın 3-də Goranboy rayonuna səfər edib. Dövlət başçısı Goranboy şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.**

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Prezident İlham Əliyevə son vaxtlar rayonda görülən işlər barədə məlumat verib.

Prezidenti İlham Əliyev Goranboy rayonuna səfəri çərçivəsində Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun yenidənqurmadan və bərpadan sonra açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlət başçısına məlumat verib.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsib.

Daha sonra Prezident Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edib. Xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdikdən sonra Prezident xəstəxanada yaradılan şəraitlə tanış olub.

Tibb ocağının kollektivi ilə görüşən dövlət başçısı onlarla xatirə şəkli çəkdirib.

Prezidenti İlham Əliyev "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Goranboy filialının fəaliyyəti ilə də tanış olub. "Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov Prezident İlham Əliyevə müessisədə yaradılan şərait barədə məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Şəmkir rayonuna da səfərə gəlib. Dövlət başçısı əvvəlcə Şəmkir şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov rayonda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verib.

Prezident İlham Əliyev Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlərlə bağlı məlumat verib.



Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsib.

"Şəmkirçay" Sutəmizləyici Qurğular Kompleksi də istifadəyə verilib. Prezident İlham Əliyev açılış mərasimində iştirak edib. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Prezident İlham Əliyevə kompleks barədə məlumat verib. Dövlət başçısı kompleksin işə salınmasını bildirən düyməni basıb. Sonra o, kompleksin kollektivi ilə görüşüb.

**Sonda xatirə şəkli çəkdirilib.**

# Rostovun qubernatoru İlham Əliyevə Heydər Əliyevə aid düz 40 il əvvəlki unikal videoyazını hədiyyə etdi

**Prezident İlham Əliyev martın 3-də Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru Vasili Qolubevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib:

-Xoş gəlmisiniz, sizi görməyə çox şadam. Əminəm ki, səfəriniz məhsuldar və xoş olacaq. Bizi qədim dostluq telləri bağlayır. Şadam ki, bu gün bizə gəlmisiniz. Əlbəttə, sizin səfərinizin gündəliyi yetərincə zəngindir. Bildiyimə görə, çoxlu görüşləriniz olacaq. Mənim fikrimcə, bu görüşlərin hamısı çox konstruktiv olacaq və onların nəticələrinə əsasən gələcək əməkdaşlıq yollarını planlaşdıracağıq. Ona görə ki, həm əmtəə dövriyyəsinin artırılması, həm də investisiya layihələrinin, mədəni layihələrin həyata keçirilməsi sahəsində böyük potensial var. Ümumiyyətlə, biz qonşuyuq, demək olar ki, eyni regionda yaşayırıq. Buna görə də, kənd təsərrüfatı istiqamətləri ümumiyyətlə oxşardır. Odur ki, kooperasiya üzrə istiqamətlər çoxdur. Bildiyiniz kimi, biz sizin kənd təsərrüfatı texnikasından fəal istifadə edirik və bizim fermerlər razıdırlar. Beləliklə, görüləsi işlər çoxdur, gündəlik zəngindir. Ümidvaram ki, səfəriniz çox səmərəli olacaq. Bir daha xoş gəlmisiniz.

Rostov vilayətinin qubernatoru Vasili Qolobev deyib:

- Əvvələn, səmimi qəbul üçün Sizə təşəkkür edirik. Biz artıq işə başlamışıq və xeyli görüşlər olub. Biznes nümayəndələri işləyirlər. Bilirəm ki, bu layihələr çox konkretdir, hər iki tərəfin marağına uyğundur. Bu, Sizin dediyiniz kimi, maşınqayıranlara da, "Waterfall PRO" şirkətinə də aiddir. Polimerlər istehsal edən bu şirkət xammalı Azərbaycandan alır. Potensial böyükdür, təqribən 60 min ton məhsuldan söhbət gedir. Ümidvaram ki, həmin şirkətlərlə əldə edilmiş razılaşmalar reallaşacaq. Onlar praktiki olaraq reallaşmağa başlayıb. Rostov vilayəti geniş şaxələndirilmiş regiondur. Son illərdə bizdə sənaye sektorunun, aqrar sənaye sektorunun inkişaf dinamikası yaxşıdır. Turizm potensialının inkişaf etdirilməsi üçün gözəl imkanlarımız var. Bir neçə şirkət elə bu gün əlaqələrin inkişafı barədə sazişlər imzalamağa hazırdır - sabah bu sazişlər imzalanacaq.

Mən humanitar əməkdaşlıq mövzusunu ayrıca qeyd etmək istərdim. Bizim ali məktəblər arasında əməkdaşlıq haqqında bu gün də müqavilələr var. Bilirəm ki, bizim Rostov Dövlət Texniki Universitetinin, Cənub Federal Universitetinin və bir sıra başqa ali məktəblərin konkret əlaqələri reallaşıb. Çox xoşagələn haldır ki, bu tərəfdaşlıq münasibətləri qədim tarixə malikdir.

Rostov vilayətinin qubernatoru Vasili Qolubev Prezident İlham Əliyevə videoyazı olan xatirə albomunu təqdim etdi.

Videoalbom 1980-ci ildə o vaxt Azərbaycana rəhbərlik edən ulu öndər Heydər Əliyevin Rostov vilayətinə səfərinə həsr olunub. Səfər zamanı ulu öndər Böyük Vətən müharibəsi illərində misilsiz şücaət göstərmiş Azərbaycan əsgərlərinin qəhrəmanlığına həsr edilən və Rostov vilayətinin azad olunmasının rəmzi olan "Sambek yüksəklikləri" xatirə abidəsinin açılışında iştirak edib. O zaman alman faşistləri ilə döyüşlərdə böyük hünərlə vuruşan həmvətənlərimizdən ibarət 130-cu və 416-cı atıcı diviziyalar "Taqanroq" fəxri adına layiq görülmüşdü.

Prezident İlham Əliyev deyib: Bizim ortaq tariximizi xatırlatdığınıza görə çox təşəkkür edirəm. Əlbəttə, 40 il bundan əvvəl Heydər Əlirza oğlu Əliyev Rostov vilayətində bu memorialın açılışında iştirak edib. Bu tarix bizə çox əzizdir. Sağ olun ki, bu xatirəni qoruyursunuz. Riqqət hissi doğuran belə videoçarxa görə sağ olun. Əlbəttə, bu il bizim ümumi Qələbəmizin böyük bayram ilidir. Azərbaycanda Böyük Vətən Müharibəsi veteranları dövlət tərəfindən həm mənəvi, həm də maddi baxımdan dəstəklənirlər. Biz onların fədakarlığını, qəhrəmanlığını həmişə xatırlayırıq. Mən hər il mayın 9-nu adətən Bakıda veteranlarla birgə keçirirəm. Lakin, bu il Vladimir Vladimiroviç Putindən dəvət almışam və mayın 9-da Moskvada olmağı planlaşdırıram. Onu da demək istəyirəm ki, bizim ümumi Qələbəmiz şərəfinə Azərbaycan Ordusunun zabitləri Qızıl Meydanda paradda iştirak edəcəklər.

Fürsətdən istifadə edib onu da demək istərdim ki, bu məsələ barədə Rusiyanın və Azərbaycanın mövqeləri tamamilə eynidir. Böyük Vətən Müharibəsi haqqında həqiqətin təhrif edilməsi, tarixi yenidən yazmaq, faşizmi və faşistləri qəhrəmanlaşdırmaq cəhdlərinə qarşı biz də qətiyyətlə mübarizə aparırıq. Buna görə də, bu məsələdə bizim mövqelərimiz tamamilə üst-üstə düşür. Bu mövqelər həm tarixi həqiqətə, ədalətə, həm də ona əsaslanır ki, gələcək nəsillər kimin təcavüzkar, kimin təcavüz qurbanı olmasına, kimin qalib gəlməsinə və bu Qələbənin nəyin bahasına qazanılmasına heç vaxt şübhə etməsinlər.

Biz həlak olmuş bütün sovet vətəndaşlarının xatirəsini, əlbəttə, bizim nümayəndələrin də xatirəsini Azərbaycanda ehtiramla yad edirik. Müharibədə Azərbaycandan iştirak edənlərin yarısı, 300 min nəfərdən çoxu həlak olub. Müharibə illərində Sovet ordusunun sürtgü yağlarına tələbatının 90 faizini, benzinin və tankların üçün yanacağın 80 faizini Azərbaycan təmin edirdi. Bu bizim ümumi Qələbəmizdə mühüm rol oynayıb. Bizim zavodlarda zəruri silahlar, o cümlədən məşhur "Katyuşa" raketləri istehsal edilirdi. Ona görə də, biz həmin günü ehtiramla yad edirik və bu xatirə hədiyyəsinə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Sağ olun.

# Minimum əməkhaqqının artırılması gözlənir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən minimum əməkhaqqının artırılması ilə bağlı təkliflər hazırlanacaq. "Trend"in məlumatına görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov deyib.**



Onun sözlərinə görə, minimum əməkhaqqının artırılması ilə bağlı təkliflərin bu ilin ikinci yarısında hazır olacağı gözlənilir.

Nazir müavini əməkhaqqının neçə faiz artırılacağını açıqlamayıb.

A.Kərimov bununla bağlı araşdırmaların aparılacağını, bundan sonra artım faizinin müəyyən ediləcəyini deyib.

# Prezidenti Xətainin heykəlinin yeni məkanına aparan motiv - dövlətçilik tarixinə ehtiram nümunələri...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şah İsmayıl Xətainin heykəlinin köçürüldüyü yeni salınmış parkda olub. Dövlət başçısı heykəlin önünə gül dəstələri qoyub. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov burada görülən işlər barədə məlumat verib.**



Qeyd edək ki, tarixi şəxsiyyət Şah İsmayıl Xətainin heykəli magistral yolun ortasında yerləşirdi. Bu isə insanların ziyarət etmək üçün heykələ yaxınlaşmasını çətinləşdirir, eyni zamanda, yolda tıxacın yaranmasına səbəb olurdu. Bununla bağlı əhali tərəfindən Bakı Şəhər İcra Hakimiyyətinə müraciətlər edilib. Bütün bunlar və Şah İsmayıl Xətainin tarixi şəxsiyyət olduğu nəzərə alınaraq, dövlət başçısının tapşırığına əsasən, onun heykəli uyğun yerə köçürülüb və burada yeni park salınıb. Parkda əhalinin istirahəti üçün lazımi şərait yaradılıb, o cümlədən, oturacaqlar qoyulub və ətraf abadlaşdırılıb. Bu addım şəhər sakinləri və paytaxtımızın qonaqlarına heykəli rahat ziyarət etməyə şərait yaradır.

Heykəlin postamenti də yenilənib. Köçürülmə prosesi abidəyə heç bir xələl gətirilmədən həyata keçirilib.

Paytaxt Bakının abadlaşdırılması, yeni istirahət məkanlarının salınması, tarixi irsimizin qorunması Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Şah İsmayıl Xətainin heykəlinin uyğun yerə köçürülməsi və burada parkın yaradılması bu istiqamətdə atılan növbəti addımdır. Bunun, eyni zamanda, böyük siyasi əhəmiyyəti də var. Ölkə başçısının abidəni etdiyi ziyarətdən sonra onun Şah İsmayıl Xətainin heykəli önündə çəkdirdiyi foto sosial şəbəkələrdə böyük rəğbətlə qarşılandı. Çoxlu sayda sosial şəbəkə istifadəçisi məlum fotonu örtük şəklinə çevirdi. Bununla İlham Əliyev bir daha müasir Azərbaycan dövlətinin tarixi dövlətçilik ənənələrimizə necə sadiq olduğunu göstərmiş oldu. Prezident İlham Əliyev Azərbaycan dövləti adından daim milli dövlətçilik tariximizə böyük ehtiram göstərir.

Bildiyimiz kimi, 1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş verib, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulub. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam oldu. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli, 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutuldu.

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildi.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər il 28 may tarixində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edir. Azərbaycanda tarixdə iz buraxmış bütün şəxsiyyətlərin adına küçə var, onların şərəfinə heykəllər ucaldılıb.

İndiki tarixi mərhələdə hər bir siyasi liderin fəaliyyətini bütün dünya izləyə bilir. İnformasiya-kommunikasiya vasitələri elə inkişaf edib ki, dövlətə başçılıq edən şəxsin gördüyü işlər sürətlə hər yerə yayılır. Bu, bir tərəfdən, liderlərin göz önündə olmasını təmin edir. Digər tərəfdən, hər bir siyasətçinin fəaliyyətinə dünya miqyasında qiymət vermək işini asanlaşdırır. Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti haqqında dünyanın aparıcı dövlətlərinin rəhbərləri dəfələrlə fikir bildiriblər. Onların hamısı Azərbaycan Prezidentindən müdrik, uzaqgörən, əməkdaşlığa açıq və etibarlı, dövlət işlərini dərindən bilən və yüksək diplomatik bacarığa sahib lider kimi bəhs ediblər.

Əlbəttə, hər bir azərbaycanlı üçün ölkənin başçısına digər ölkələrin rəhbərlərinin yüksək qiymət verməsi qürur mənbəyidir. Həm də bu hörmətin arxasında İlham Əliyevin gərgin zəhmətinin, Vətənə böyük sevgisinin dayandığını anlamaq gərəkdir. Belə qiymətlər heç zaman asan verilmir, onu qazanmaq lazımdır, konkret əməldə layiq olduğunu göstərmək gərəkdir. Müqayisə üçün deyək ki, Cənubi Qafqazda heç bir siyasi lider barəsində bu cür fikirlər bildirmirlər. Bunlar İlham Əliyevin siyasətçi, lider və şəxsiyyət kimi dərindən öyrənilməsinə böyük ehtiyac duyulduğunu göstərir. İlham Əliyevi daha da ucaldan amillərdən biri də onun milli dövlətçiliyimizin tarixinə, şəxsiyyətlərinə göstərdiyi ehtiram və hörmətdir.

*Məhəmmədəli QƏRİBLİ*

# Ankarada Xocalı abidəsinə nəhayət qərar verildi

**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudovun rəhbərlik etdiyi nümayəndə heyəti Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar Türkiyədə keçirilən silsilə tədbirlərdə iştirak edib.**



## *Qasım Hacıyev: "Türkiyədə belə bir qərarın verilməsi vacib tarixi və siyasi əhəmiyyətə malikdir"*

Nümayəndə heyətində elmi işlər üzrə direktor müavini Cəbi Bəhramov, Qarabağ tarixi şöbəsinin müdiri Güntəkin Nəcəfli və Azərbaycan xalqına qarşı soyqırımları tarixi şöbəsinin aparıcı elmi işçisi Vaqif Abışov yer alıblar.

Nümayəndə heyəti əvvəlcə Türkiyə Prezidenti Administrasiyası yanında fəaliyyət göstərən Millət Kitabxanasına gedib və institutun erməni saxtakarlığını ifşa edən mühüm nəşrlərini kitabxanaya təqdim edib. Sonra institutun aparıcı elmi işçisi Vaqif Abışov Nevşehir Hacı Bektaş Veli Universitetində Xocalı soyqırımına həsr olunan konfransda çıxış edib. Daha sonra Türkiyədə fəaliyyət göstərən Tarixdaş Millətlər və Cəmiyyətlər Dərnəyi, Azərbaycanın Türkiyədəki Səfirliyi və Ankaradakı Yıldırım Bəyazid Universitetinin birgə təşkilatçılığı və Tarix İnstitutunun elmi dəstəyilə "Xocalı soyqırımı və Dağlıq Qarabağın işğalı" mövzusunda beynəlxalq konfrans keçirilib.

Bu arada o da məlum olub ki, Ankara şəhərində Xocalı soyqırımı parkı və abidə kompleksinin tikintisinə də başlanıb. Bu kompleks Tarixdaş Millətlər və Cəmiyyətlər Dərnəyilə Ankaradakı Yıldırım Bəyazid Universiteti arasında imzalanan anlaşmaya əsasən universitetin ərazisində yerləşdiriləcək. Layihəyə elmi dəstək göstərən isə AMEA-nın Tarix İnstitutudur.

Bütün hallarda, Türkiyənin paytaxtında Xocalı soyqırımı ilə bağlı abidə kompleksinin tikilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, sözügedən dəhşətli soyqırımın Türkiyə ictimaiyyəti tərəfindən unudulmaması məqsədi daşıyır. Maraqlıdır, bəs ekspertlər bunun əhəmiyyətini necə dəyərləndirirlər?

*"Bütün dünya görsün ki, 28 il əvvəl Xocalıda günahsız insanlar vəhşicəsinə qətlə yetirilib"*

Məsələyə münasibət bildirən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyevin sözlərinə görə, Ankarada Xocalı soyqırımı ilə bağlı abidə kompleksinin ucaldılmasına qərar verilməsi vacib tarixi və siyasi əhəmiyyətə malikdir: "Çünki biz bütün dünya ictimaiyyətindən umuruq ki, Azərbaycanın bu haqq səsinə səs versinlər. Bütün dünya görsün ki, 28 il əvvəl Xocalıda günahsız insanlar vəhşicəsinə qətlə yetirilib. Ona görə də bunu bütün dünya ictimaiyyətinə yaymaq lazımdır. Bu baxımdan da təbliğatın böyük rolu var. Təkcə kitab və məqalə yazmaqla iş bitmir. Bunu təbliğ etmək üçün bütün vasitələrdən istifadə etmək lazımdır. Yəni təkcə bununla bağlı kitablar yazmaq, məqalələr dərc etmək, filimlər çəkmək yetərli deyil. Bütün bunlarla yanaşı, baş verən faciəni tarixdə yaşatmaq üçün abidə kompleksi ucaldılmalıdır.

**Türkiyənin paytaxtı Ankarada belə bir abidənin ucaldılmasına qərar verilməsi vacib hadisədir. Dünya ictimaiyyəti Türkiyə Respublikasında bu abidəni görərsə, o zaman Xocalı soyqırımı daha geniş müstəvidə tanınar. Bunun da həm siyasi, həm də tarixi baxımdan əhəmiyyəti böyükdür. Ona görə də Türkiyə dövlətinin buna qərar verməsi alqışalayıqdır".**

*Vidadi ORDAHALLI*

# Azərbaycanda koronavirusla mübarizə çərçivəsində əsaslı addımlar davam edir

*Koronavirusun diaqnostikası üçün xüsusi dövlət tibb müəssisələri müəyyənləşdirildi, AFFA-nın bütün liqalarda oyunları, 9-cu siniflər üçün buraxılış imtahanı, basketbol üzrə Azərbaycan çempionatının oyunları, velosiped yarışı təxirə salındı, Naxçıvanda da tədris prosesi dayandırıldı*



**Beynəlxalq təcrübəyə uyğun olaraq koronavirus infeksiyalarının laborator diaqnostikası üçün xüsusi dövlət tibb müəssisələri müəyyənləşdirilib. Nazirlər Kabineti yanında operativ qərargahdan baki-xeber.com-a bildirilib ki, xüsusi ayrılmış tibb müəssisələrindəki laboratoriyalar Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) müəyyən etdiyi bütün biotəhlükəsizlik və digər keyfiyyət standartlarına tam uyğun qurulub, analizlər yüksək ixtisaslı kadrlar tərəfindən icra olunur, test nəticələrinin düzgünlüyünə xüsusi proqramlarla nəzarət edilir.**

Digər dövlət və qeyri-dövlət tibb müəssisələrində koronavirusun təyini məqsədilə laborator analizlərin aparılması qəti qadağandır! Bu tələbi pozan bütün tibb müəssisələrinə qarşı qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görüləcək.

Son vaxtlar vətəndaşlarımızda koronavirus infeksiyalarının laborator diaqnostikasına dair bəzi suallar yaranıb. Nazirlər Kabineti yanında operativ qərargah bildirir ki, koronavirus infeksiyalarının vaxtında aşkar olunması üçün hazırda xəstəliyin geniş yayıldığı bölgədən gələn, yaxud həmin bölgədən gələnlə, eləcə də xəstəliyi təsdiq olunmuş şəxslə təmasda olan şəxslərdən analiz nümunələrinin götürülməsi vacibdir. Hazırda xüsusi ayrılmış dövlət tibb müəssisələrindəki laboratoriyalarda ÜST-ün protokoluna əsasən sözügedən şəxslərin tibbi müayinələri dövlət büdcəsi hesabına həyata keçirilir.

Həmin şəxslər özlərində respirator xəstəlik əlamətləri (qızdırma, halsızlıq, öskürək, ürəkbulanma, nəfəs darlığı) hiss etdikləri halda dərhal 103 (Bakı daxili) və ya 113 (Bakıdan kənar) Təcili yardım nömrələrinə zəng edə və həkim müayinəsindən keçə bilərlər.

Koronavirus (COVİD - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında operativ qərargahdan verilən məlumata görə, yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi, ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə 2020-ci ilin mart ayının 3-dən 9-dək (ilk tədris günü mart ayının 10-u müəyyən edilir) bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılmasına və bununla bağlı bütün tədbirlərin təxirə salınmasına dair qərar qəbul olunub.

Bu müddət ərzində Təhsil Nazirliyinə və tabeliyində təhsil müəssisələri olan müvafiq icra hakimiyyəti orqanlarına bütün təhsil müəssisələrində tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlərin davam etdirilməsi tapşırılıb və AFFA-nın təşkilatçılığı ilə keçirilən U-9, U-10, U-11, U-12, U-13, U-14, U-15, U-16, U-17 və Gənclər liqalarının, U-11, U-13 və U-16 qızlar liqalarının, həmçinin "Coca-Cola Məktəbli kubo-ku"nun iştirakçılarının, müvafiq olaraq, orta məktəb şagirdləri və tələbələr olmasını nəzərə alınaraq, qeyd olunan turnirlərin oyunları 2020-ci il martın 10-dək təxirə salınıb.

Dövlət İmtahan Mərkəzinin martın 9-da keçirməsi nəzərdə tutulan buraxılış imtahanı da təxirə salınıb.

Mərkəzdən "Trend"ə verilən məlumata görə, 9 mart 2020-ci il tarixində Gəncə, Lənkəran, Şəki, Sumqayıt şəhərlərində, Abşeron, Ağdam, Ağstafa, Ağsu, Bərdə, Biləsuvar, Göygöl, İmişli, Kürdəmir, Lerik, Oğuz, Qazax, Qəbələ, Saatlı, Sabirabad, Samux, Şabran, Şamaxı, Tərtər, Tovuz, Xaçmaz, Yevlax, Zərdab rayonlarında yerləşən orta ümumtəhsil müəssisələrinin 9-cu sinif şagirdləri üçün buraxılış imtahanının birinci mərhələsinin keçirilməsi nəzərdə tutulub.

Koronavirus (COVİD - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə həyata keçirilən təxirəsalınmaz tədbirlərə uyğun olaraq yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə qeyd olunan tarixdə keçirilməsi planlaşdırılan imtahan təxirə salınıb.

Bu istiqamət üzrə imtahanın vaxtı imtahanın keçiriləcəyi tarixdən 1 həftə əvvəl elan olunacaq.

Basketbol üzrə Azərbaycan çempionatının oyunları da təxirə salınıb. Bu barədə Azərbaycan Basketbol Federasiyasının saytında məlumat yayılıb.

Məlumata görə, bu addım Nazirlər Kabinetinin yanında operativ qərargahın müvafiq məlumatı (Koronavirus (COVİD - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər çərçivəsində atılıb.

Federasiyasının qərarına əsasən, kişilər arasında Superliqanın bu gün və martın 5-də keçirilməli olan XXI turunun matçları təxirə salınıb. Qarşılaşmaların təşkili vaxtı hələ dəqiqləşməyib.

Azərbaycan Velosiped İdmanı Federasiyası da martın 10-dək bütün velosiped bölmələrində məşq və tədris prosesini dayandırıb.

Federasiyadan verilən məlumata görə, bu, koronavirus infeksiyasının ölkə ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə həyata keçirilib.

Bundan başqa, martın 7-8-də nəzərdə tutulan şose velosipedi üzrə Bakı Kubokunun 1-ci mərhələsi də təxirə salınıb

Hazırda Respublika Velotrekində və digər velosiped bölmələrində tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər həyata keçirilir.

2020-ci ilin mart ayının 4-dən 9-dək Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən ümumtəhsil və peşə məktəblərində tədris prosesi dayandırılıb.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, bu müddət ərzində həmin təhsil müəssisələrində tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər davam etdiriləcək.

Ümumtəhsil və peşə məktəblərində tədris martın 10-dan yenidən bərpa olunacaq.

Qeyd edək ki, bu gün ümumtəhsil və peşə məktəblərində tədris qrafikə uyğun davam edib.

Həmçinin, bu qərar uşaq bağçalarına da aiddir.

"İndiyədək Azərbaycanda heç bir təhsil müəssisəsində koronavirusa yoluxma faktı aşkarlanmayıb". Bunu Nazirlər Kabineti yanında koronavirusla əlaqədar yaradılan operativ qərargahın üzvü, Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin şöbə müdiri Yaqut Qarayeva deyib.

Y.Qarayeva məktəblərdə tədris prosesinin dayandırılmasının vaxtında verilmiş qərar hesab edib: "Məktəblərdə dərslərin dayandırılması o demək deyil ki, biz ölkədə koronavirusla bağlı risqləri yüksək qiymətləndiririk. Biz bu hadisələrin qarşısını əvvəlcədən almalıyıq. Hazırkı şəraitdə məktəblərdə dərslərin dayandırılması çox düzgün seçilmiş tədbirdir".

O qeyd edib ki, indiyədək dünyada koronavirusa yoluxan 10 yaşadək uşaqlar arasında ölüm halı baş verməyib. Onun sözlərinə görə, uşaqlar arasında yoluxma halı olsa da, ağır fəsadlar müşahidə edilməyib.

Şöbə müdiri hazırda Azərbaycanda koronavirusa yoluxmuş 3 nəfərin olduğunu da xatırladıb: "Onlar hazırda həkim müşahidəsi altındadırlar və heç birində ağırlaşma qeydə alınmayıb. Həmin şəxslərin vəziyyəti stabildir".

Təhsil Nazirliyi valideynlərə müraciət edib. Martın 3-dən 9-dək təhsil müəssisələrində tədrisin dayandırılmasına səbəb koronavirus infeksiyasına yoluxma hallarının qarşısını almaq məqsədilə ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində intensiv tibbi-profilaktik tədbirlərin görülməsidir: "Bununla əlaqədar qeyd olunan müddətdə aşağıdakı TÖVSİYƏLƏRİ nəzərə almağınız sizdən xahiş olunur:

1. Ev şəraitində əsas profilaktik tədbirlərə ciddi riayət edin (sabun, su və ya spirt tərkibli antiseptik vasitə ilə tez-tez əllərinizi yuyun, soyuqdəymə və ya qripəbənzər simptomları olan şəxslərlə yaxın təmasda olmayın, hərarətiniz olarsa və ya tənəffüs zamanı çətinlik çəkərsinizsə, dərhal həkimə müraciət edin);

2. Övladlarınızı insanların toplaşdığı qapalı məkanlara (ticarət və əyləncə mərkəzləri, şənlik, mərasimlər və s.), hər hansı kütləvi tədbirlərə, ekskursiyalara və ya səyahətə aparmayın.

3. Övladlarınıza keçirilmiş dərsləri təkrar etməyə və tapşırıqlar yerinə yetirməyə şərait yaradın. Bu məqsədlə Təhsil Nazirliyinin müxtəlif elektron resurslarından istifadə edə bilərsiniz (e-derslik.edu.az, e-resurs.edu.az, trims.edu.az, video.edu.az və s.).

4. Məsələ ilə bağlı Təhsil Nazirliyinin və digər aidiyyəti dövlət qurumlarının rəsmi məlumatlarını mütəmadi olaraq izləyin".

Xatırladaq ki, tədris fasiləsindən sonra ilk dərs günü martın 10-u müəyyən edilib.

***Baki-xeber.com***

"Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) qurumun məqsəd və vəzifələrini - sülhü, sabitliyi və təhlükəsizliyi dəstəkləyən dövlətlərin, istər Azərbaycan, istərsə də Monqolustan olsun, ərizələrinə baxmağa hazırdır".



# KTMT-nin konfransında Belarus səfiri Ermənistanın "kürkünə birə saldı" - Azərbaycanla KTMT...

## *Əli Orucov: "Bu onu göstərir ki, KTMT-də təmsil olunan ölkələr Ermənistana müttəfiq kimi yanaşmırlar"*

Erməni mediasının məlumatına görə, bu sözləri KTMT katibliyinin nümayəndəsi İqor Panarin "Qafqaz regionunda təhlükəsizliyin qorunmasında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının rolu" mövzusunda "dəyirmi masa" zamanı Azərbaycanın KTMT-yə üzvlüyünün mümkün olub-olmaması və bundan sonra Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək edə bilib-bilməyəcəyi sualına cavabında bildirib.

İ.Panarin vurğulayıb ki, normativ-hüquqi sənədlərə baxsaq, orada belə prosedurlara qarşı bir sıra tələblər irəli sürülüb: "Konsensus hüququ da var, buna görə də bu prosedur anlarına hansı dövlətlərin daxil ola biləcəyini qiymətləndirmək üçün tələsməyəcəyəm. Mənə elə gəlir ki, bu məsələyə ölkə tərəfindən rəsmi olaraq belə bir prosesə başlamaq niyyəti ilə bağlı ərizə verildikdən sonra baxmaq olar".

Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin isə KTMT-də konsensus qaydasının mövcud olduğunu vurğulayıb. Onun fikrincə, istənilən halda, üçüncü ölkələrlə münasibətlərin qurulması üçün bütün iştirakçıların razılığı tələb olunur.

Maraqlı məqamlardan biri də odur ki, müzakirədə iştirak edən Belarusun Ermənistandakı səfiri İqor Nazaruk bu məsələ ilə bağlı Azərbaycana dəstək verdiyini bəyan edib. Onun fikrincə, SSRİ-nin təcrübəsini nəzərə alsaq, Azərbaycanın KTMT-yə üzvlüyünə qarşı deyilik: "Mən Sovet İttifaqının təcrübəsinə müraciət etmək istəyirəm. Xatirinizdədirsə, biz Baltikyanı respublikalar və Orta Asiya respublikaları arasında fərqli idik. Xoşbəxtlikdən, SSRİ ərazisində bu çoxmillətli ailədə nə ərazi iddiaları var idi, nə millətlərarası, nə də dinlərarası münaqişələr. Buna görə də bu istiqamətdə trend doğru olardı".

Göründüyü kimi, Belarus bütün səviyyələrdə Azərbaycana dəstəyini əsirgəmir. Hətta bu ölkənin Ermənistandakı səfiri belə Azərbaycanın KTMT-də təmsil olunmasını arzulayır. Hansı ki, bu məsələ erməniləri zaman-zaman narahat edib. Görünən odur ki, yenidən ermənilərin bununla bağlı narahatlığı yaranıb.

*"Belarus Ermənistanla eyni hərbi blokda təmsil olunsa da, istehsal etdiyi ən müasir hücum silahlarını Azərbaycana ixrac edir"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun fikrincə, Belarusun Azərbaycana yönəlik bu jesti bir sıra aspektdən Ermənistana zərbədir: "Əvvəla Belarus Ermənistanla KTMT-də təmsil olunsa da, istehsal etdiyi ən müasir hücum silahlarını Azərbaycana ixrac edir. Hansı ki, bu, Ermənistan hakimiyyətini bərk narahat edən məqamlardan biridir. Dəfələrlə Ermənistan buna mane olmağa çalışsa da, Belarus hakimiyyəti onların bununla bağlı tələblərini görməzdən gəlib. Belarusla yanaşı, KTMT-də təmsil olunan Qazaxıstan da Azərbaycana açıq dəstək verməkdən çəkinmir və dəfələrlə bunu müxtəlif formalarda bəyan edib. Düzdür, KTMT-yə üzv olmaq konsensus əsasında olmalıdır. Yəni hər hansı digər üzv ölkənin razılığı olmadan bu mümkün deyil. Təbii ki, Ermənistan bizim orada təmsil olunmağımıza razılıq verməz. Ancaq Ermənistanı narahat edən odur ki, hərbi təşkilatda təmsil olunan bəzi ölkələr, o cümlədən, Belarus getgedə daha çox Azərbaycana dəstək verir. Siyasi baxımdan bu, Ermənistana zərbədir. Bu onu göstərir ki, KTMT-də təmsil olunan ölkələr Ermənistana müttəfiq kimi yanaşmırlar. Bu ölkəni təşkilat üçün yük hesab edir və Azərbaycana xüsusi önəm verirlər".

**Vidadi ORDAHALLI**

Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu ATƏT-in Minsk Qrupu həmsədrləri ilə Dağlıq Qarabağ münaqişəsini müzakirə edib. Çavuşoğlu Minsk Qrupunun həmsədrlərini və ATƏT sədrinin xüsusi nümayəndəsi Kaspirşiki paytaxt Ankarada qəbul edib.




# "Qarabağ həmsədrləri" Türkiyəyə niyə getmişdilər - erməni versiyası və ekspert rəyləri...

## *Elşən Həsənov: "Son proseslərin gedişi göstərir ki, Ermənistanı qarşıda ciddi imtahan gözləyir"*

Çavuşoğlu görüşlə bağlı şəxsi "Twitter" səhifəsində yazıb. O qeyd edib ki, ATƏT-in Minsk Qrupu Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində daha aktiv fəaliyyət göstərməlidir: "Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həll olunmalıdır".

Qeyd edək ki, Türkiyənin bu addımı Ermənistanı bərk qəzəbləndirib. Onlar qeyd edirlər ki, Türkiyə ATƏT-in Minsk Qrupunun üzvü olsa da, həmsədr ölkələr sırasına aid deyil. Ermənistan tərəfi, eyni zamanda, həmsədrlərə ona görə etiraz edir ki, onlar Atatürkün portretinin fonunda Dağlıq Qarabağ problemini müzakirə ediblər və söhbətin məğzi belə olub ki, problem Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bildirilir ki, Ermənistan bu məsələdə Türkiyənin heç bir vasitəçilik səylərini qəbul etmir və bununla bağlı rəsmi İrəvan həmsədrləri məlumatlandırıb. Bunun ardınca isə erməni KİV-i qondarma qurumla Ermənistanın təhlükəsizliyinin eyni mahiyyət daşıdığını bildirir.

Ermənistanın Xarici İşlər naziri Mnatsakanyan da bu görüşdən möhkəm narahat olduğunu ifadə edib. O öz "Twitter" hesabında həmsədrlərin Çavuşoğlu ilə görüşünə İncildən sitatla cavab verib: "Həkim, özün-özünü sağalt". Ermənistanın bu səviyyədə açıq narahatlıq ifadə etməsi nə ilə əlaqəlidir?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın narahatlığı əbəs deyil: "Hazırda Türkiyə Yaxın Şərqdə, daha doğrusu, öz sərhədləri ətrafında baş verən hadisələrə seyrçi qalmadığını nümayiş etdirir. Hətta ən aktiv aktor kimi proseslərə müdaxilə edir, dünyanın supergücləri ilə baş-başa gəlir. Ermənistanı bu amil ciddi narahat edir. Çünki Ermənistan dövlət olaraq Türkiyəyə qarşı açıq ərazi iddiaları irəli sürür. İki ölkə arasında diplomatik münasibətlər mövcud deyil. Türkiyə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı məsələyə də biganə deyil. Problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyünü bildirir. Həmsədrlərlə bu müzakirənin aparılması Ermənistanı narahat etməyə bilməz. Çünki Türkiyə həm də ATƏT-in Minsk Qrupunun üzvüdür. Zaman-zaman Türkiyənin həmsədrlərdən biri ilə əvəz edilməsi gündəmə gətirilsə də, Ermənistan buna kəskin etiraz edib. Ancaq dünyadakı reallıqlar dəyişir. Türkiyənin rolu əhəmiyyətli dərəcədə artıb.

Yaxın zamnlarda biz bunu Dağlıq Qarabağla bağlı prosesdə də müşahidə edəcəyik. Güman edirəm ki, həmsədrlərin Türkiyəyə etdiyi səfər məhz bu amillə bağlıdır. Ermənistanın bu fondakı qışqır-bağırı nəyisə dəyişən deyil. Dünyada və regionda dəyişən reallıqlar bunu tələb edir. Son proseslərin gedişi göstərir ki, Ermənistanı qarşıda ciddi imtahan gözləyir. O, iki yoldan birini seçməlidir: ya işğaldan əl çəkmək, ya da burnunun əziləcəyini gözləmək".

***Məhəmmədəli QƏRİBLİ***

# Koronavirusla birgə dövlət və ictimai mübarizənin Azərbaycan modeli...

***Adil Qeybulla:** "Cəmiyyət dövlətlə bərabər üzərinə düşən vəzifələri yerinə yetirməlidir"*

**Məlum olduğu kimi, Çindən başlayıb dünyaya yayılan yeni növ koronavirus xəstəliyi (COVID-19) ilə bağlı xəbərlər əsas gündəm mövzusudur. Müxtəlif ölkələrdə hər gün xəstəliyə yeni yoluxma halları qeydə alınır.**

Azərbaycanda da koronavirusla bağlı məsələ ilk gündən diqqət mərkəzindədir. Nazirlər Kabinetinin sərəncamı ilə 2020-ci ilin 30 yanvar tarixində "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" təsdiq edilib və nəzərdə tutulmuş tədbirlər həyata keçirilməkdədir. Qeyd olunan xəstəliyin yayılma coğrafiyasının geniş miqyas aldığını nəzərə alan Nazirlər Kabineti daha geniş əhatəli Tədbirlər Planı təsdiqləyib. Bundan başqa, koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradılıb. Qabaqlayıcı tədbirlərin görülməsi və Azərbaycanın bütün ərazilərində monitorinqin aparılması üçün aidiyyəti sahə mütəxəssislərindən ibarət ekspert qrupları da təşkil olunub. Eyni zamanda, əhalinin məlumatlandırılması və əsassız dezinformasiyaların qarşısının alınması məqsədilə qərargahın "qaynar xətt"i fəaliyyət göstərir. Beynəlxalq standartlara cavab verən biotəhlükəsizlik laboratoriyaları tam gücü ilə paytaxtda, eləcə də regionlarda fəaliyyət göstərir. Bu laboratoriyalar bir sıra xüsusi təhlükəli xəstəliklərin molekulyar diaqnostikası üzrə ixtisaslaşıb. Bir sözlə, koronavirus infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə ölkədə təxirəsalınmaz tədbirlər davam etdirilir. Xəstəliyin ölkədə yayılmaması üçün bütün lazımi tədbirlər həyata keçirilir, sanitar-epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanır. Bununla belə, əhalinin sıx olduğu yerlərdə, daha çox istifadə etdiyi metro nəqliyyatında dizinfeksiya işləri görülür və s.

Ancaq bütün bunlara baxmayaraq, görürsən ki, bəziləri sosial şəbəkələrdə bununla bağlı məsuliyyəti ancaq dövlətin üzərinə atırlar. Yeri gəldi-gəlmədi, dövləti tənqid edirlər. Sanki dövlət qabaqlayıcı profilaktik tədbirlər görmür. Hansı ki, yuxarıda qeyd olunduğu kimi, bununla bağlı dövlət bir sıra tədbirlər görüb və görür. Lakin elə məsələlər var ki, bunu yalnız dövlətdən ummaq doğru yanaşma deyil. Məgər dövlət hər bir vətəndaşın başı üzərində dayanıb adi gigiyena qaydalarına nə dərəcədə əməl etdiyinə nəzarət etməlidir? Təbii ki, bu mümkün olan iş deyil. Koronavirusun yayılmasının qarşısının alınması və müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi üçün cəmiyyətin də bu məsələdə fəal olmasına ehtiyac var. Söhbət ondan gedir ki, görülən profilaktik tədbirlər çərçivəsində hər bir vətəndaş adi gigiyena qaydalarına doğru-düzgün əməl etməlidir. Virusdan qorunmaqla bağlı müvafiq tövsiyələrə, xəbərdarlıqlara cəmiyyət əməl etməli və bundan irəli gələn məsələlərə əməl etməlidir. Bir növ, dövlətlə cəmiyyət arasında vəhdət qurulmalıdır. Yalnız o halda koronavirusdan etibarlı şəkildə qorunmaq və bunun yarada biləcəyi fəsadları önləmək mümkün olacaq. Bütün bunlardan çıxış edərək Azərbaycanda koronovirusla mübarizədə dövlət və cəmiyyətin sinxronluğuna, birləşməsinə necə nail olmaq olar?

Məsələyə münasibət bildirən professor Adil Qeybullanın sözlərinə görə, buna nail olmaq üçün hər bir vətəndaş üzərinə düşən işi yerinə yetirməlidir: "Bu məsələdə hər şeyi dövlətin üzərinə yükləmək doğru deyil. Dövlət səviyyəsində bununla bağlı bir sıra işlər görülür. Ancaq gərək vətənsaşlar da koronavirusla bağlı tövsiyələrə əməl etsinlər. Məsələ ondadır ki, Ümumdünya Səhiyyə Təşkilatının bununla bağlı tövsiyələri var. Tövsiyələr profilaktika, müalicə haqqındadır. Hesab edirəm ki, vətəndaşlar buna əməl etməlidirlər. Bununla yanaşı, insanlar arasında maarifləndirici iş aparılmalıdır. Televiziyanı bura qoşmaq lazımdır. Hesab edirəm ki, bu da vacib şərtlərdən biridir. Mütəxəssislər efirə çıxıb insanları ətraflı maarifləndirsin, onlara virusun mahiyyətini və ondan qorunmağın yollarını izah etsinlər. Yoxsa, biri çıxıb deyir araq içmək lazımdır, o birisi deyir xaş yemək lazımdır. Hesab edirəm ki, bu doğru deyil və belə söhbətlər qeyri-ciddidir. Bu cür yalan söhbətlər koronovirusla mübarizədə effektiv nəticə verə bilməz. Ona görə də ÜST-nin tövsiyələri əsasında insanlara məsləhətlər verilməlidir. Bunu əsasən mütəxəssislər etməlidirlər. İnsanlar bilməlidirlər ki, koronovirusdan necə qorunmaq lazımdır. Çünki bunlar olmayanda cəmiyyətdə panika yaranır və müxtəlif şayiələr baş alıb gedir. Koronovirusdan heç bir ölkə sığortalanmayıb.



*"O zaman bu iki tərəfin sinxron fəaliyyətini qurmaq olar"*

**Bunun bütün ölkələrdə olması mümkündür. Çünki bu, dünya üzrə yayılmış bir epidemiyadır. Ona görə də mübarizə tədbirlərini düz qurmaq lazımdır. Mümkün qədər az itki ilə bu situasiyadan çıxmaq lazımdır. Hesab edirəm ki, istilər yaxınlaşdıqca virusun təsiri azalacaq. Ona görə də bu qısa dövr ərzində intensiv olaraq ÜST tövsiyələri əsasında hərəkət etmək lazımdır. Cəmiyyət dövlətlə bərabər üzərinə düşən vəzifələri yerinə yetirməlidir. O zaman bu iki tərəfin sinxron fəaliyyətini qurmaq olar".**

***Vidadi ORDAHALLI***

# Uzaq İdlib proseslərinin perspektivdə Qarabağ danışıqlarına təsirləri...

**Qabil Hüseynli:** *"Türkiyənin oradan tam qalib ayrılması onun regional güc kimi statusunu daha da artırar"*

**Türkiyənin Suriyada başlatdığı antiterror əməliyyatına az qala bütün dünya dəstək verir. Bəllidir ki, PKK və bu kimi digər terror qruplaşmalarına qarşı yönələn mübarizə dünyanı təhdid edən təhlükələrin qarşısını almaqdan ötrüdür.**

Bu məqamda yada salmaq lazımdır ki, Türkiyə mətbuatı zaman-zaman PKK üzvlərinin Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində hərbi təlimlər keçdiyi barədə məlumatlar dərc edib. Artıq bir sıra analitiklər hesab edirlər ki, Türkiyə İdlib olaylarından tam qalib çıxandan sonra Dağlıq Qarabağla bağlı səylərini artıracaq. Bura istər diplomatik, istərsə də hərbi səylər aid edilir. Çünki Türkiyə və müttəfiqləri terrorun kökünü kəsmək üçün Qarabağda da antiterror əməliyyatlarına başlaya bilmələri üçün əllərində kifayət qədər zəmin var.

Ermənistan artıq bundan ciddi əndişələnməyə başlayıb. Hər vəchlə Türkiyənin Yaxın Şərqdə oynadığı rolu qaralamağa çalışırlar. Ancaq çox kiçik bir ölkə kimi Ermənistanın həmin proseslərə təsir imkanları, demək olar ki, yoxdur. Belə olan təqdirdə, İdlib hadisələrinin yekunlaşması və Türkiyənin prosesdən qalib çıxmasının Qarabağla bağlı prosesə nə kimi təsiri ola bilər?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İdlib Türkiyənin milli təhlükəsizliyinə bağlı olan məsələdir: "Türkiyə həmin ərazidə fəaliyyət göstərən YPX və PKK-nın güclərini zərərsizləşdirir. Bunu da onunla əsaslandırır ki, həmin güclər Türkiyə üçün təhdid obyekti sayılır. Türkiyə, faktiki olaraq, terrorla mübarizə adı ilə oradadır. Suriya ərazisi terrorçuların ən sıx dislokasiya olunduğu ərazi sayılır. Buna baxmayaraq, İdlib məsələsində Türkiyənin qalib çıxdığını iddia etmək çox tezdir. Hazırda orada Rusiya var və açıq şəkildə Əsədə kömək edir. Buna görə də İdlibin asanlıqla Türkiyənin nəzarətinə keçəcəyini iddia etmək hələ şübhəlidir. Dağlıq Qarabağ probleminin həlli ilə İdlib məsələsini eyniləşdirmək doğru olmazdı. Türkiyənin İdlibdə qalib gəlib-gəlməməsindən asılı olmayaraq, Ankara Dağlıq Qarabağ probleminin həllinə yaxından dəstək verir. Ancaq Türkiyənin oradan tam qalib ayrılması onun regional güc kimi statusunu daha da artırar. Bunun çox böyük əhəmiyyəti ola bilər. Lazım gəlsə, Dağlıq Qarabağla bağlı problemə daha aktiv müdaxilə edə bilər. Ümumiyyətlə, Türkiyənin Suriya prosesinə təsiri güclənərsə, onun nüfuzu daha da artar. Bunun da nəticəsində onun Qarabağ məsələsində sözünün çəkisi daha da artar. Hesab edirəm ki, qarşıdakı zamanda biz Türkiyənin Dağlıq Qarabağla bağlı aktivliyinin artacağını görəcəyik".




**Məhəmmədəli QƏRİBLİ**

# Davos Forumunun Bakıda Regional Mərkəzinin açılması 1994-cü ildən başlanmış inkişafın nəticələrindən biri sayıldı...

**Vüqar Rəhimzadə:** *"Azərbaycan etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirir"*

**"Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası Azərbaycana davamlı uğurlar qazandırır. Bunu əsaslandırmaq üçün 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından ötən dövr ərzində Azərbaycanın enerji sektorunda qazandığı uğurların xronologiyasına diqqət yetirmək kifayətdir.**



Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərlərinin reallığa çevrilməsi əməkdaşlığın regional çərçivədən çıxaraq beynəlxalq müstəvidə davamına geniş yol açdı. Bu gün haqqında bəhs etdiyimiz Cənub Qaz Dəhlizi görülən işlərin zirvəsi kimi dəyərləndirilir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, biz çox nadir əməkdaşlıq formatını müəyyən etdik." Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısı ilə bağlı KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, 2015-ci ildən ənənəvi keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısı müxtəlif əməkdaşlıq formatlarının təşəbbüskarı kimi çıxış edən Azərbaycanın enerji sektorunda əldə etdiyi uğurların təqdimatında əhəmiyyətli rol oynayır: "Hər bir toplantı Azərbaycanın bu sahədə iştirakçısı və təşəbbüsçüsü olduğu layihənin uğurla başa çatması, yaxud yeni layihənin gündəmə gətirilməsi ilə yadda qalır. 2018-ci il Cənub Qaz Dəhlizinin rəsmi açılışı, eyni zamanda, onun əsas seqmentlərindən olan TANAP-ın istifadəyə verilməsi ilə yadda qaldı. 2019-cu ildə Türkiyənin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı oldu. Cari ilin sonuna Cənub Qaz Dəhlizinin tərkib hissələrindən olan TAP-ın istifadəyə verilməsi nəzərdə tutulur. Artıq TAP-la bağlı işlərin 92 faizi həyata keçirilib. Dövlətimizin başçısı bu uğurlara söykənərək, ən əsası hər bir layihənin nəzərdə tutulduğu vaxtda başa çatdığını önə çəkərək bildirir ki, bu, bizim hamımızın uğur hekayəsidir.

V.Rəhimzadə bildirib ki, enerji layihələrinin uğurlu icrası Azərbaycanın dövlət büdcəsinə milyardlarla dollar vəsaitin daxil olmasına geniş yol açır: "Neft gəlirlərinin səmərəli istifadəsi mühüm sosial-iqtisadi layihələrin icrasını şərtləndirir. 2003-cü ildən neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində atılan addımlar məhz neft strategiyasının məntiqi nəticəsidir. Azərbaycanın dünya təcrübəsinə istinadən müəyyənləşdirdiyi iqtisadi strategiya onun dünyanı bürüyən maliyyə və iqtisadi böhrandan uğurla çıxmasına geniş yol açdı. Neft hasil edən bir sıra ölkələrdə varlı və yoxsullar arasındakı fərqin çox yüksək olduğunu önə çəkən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, ona görə də bizim əsas məqsədimiz neft - "qara qızıl"ı insan kapitalına çevirmək olub. Son 16 ildə Azərbaycanda yoxsulluq səviyyəsinin 49 faizdən 4,8 faizə düşməsi onu göstərir ki, iqtisadi inkişaf, neft-qaz layihələri əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Son 16 ildə iqtisadiyyatımız 3,4 dəfə, xarici ticarətimiz 6,4 dəfə artıb. Ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi 270 milyard dollara yaxındır. Valyuta ehtiyatlarımız 52 milyard dollara çatıb. Təbii ki, bu uğurlarımız təkmil islahatların, düşünülmüş və məqsədyönlü siyasətin nəticəsidir. Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı ən islahatçı 20 ölkədən biri hesab edir. Cari ilin yanvarında ənənəvi keçirilən Davos Dünya İqtisadi Forumu çərçivəsində Azərbaycan ilə qurum arasında Bakıda "Davos Dördüncü Sənaye İnqilabı Mərkəzinin yaradılması haqqında niyyət protokolu" imzalandı. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bu, Qafqaz və Mərkəzi Asiyanı əhatə edəcək regional mərkəzdir. Azərbaycanın bu uğura imza atmasını şərtləndirən əsas amil sənayemizin, qeyri-neft sənayesinin sürətlə inkişafıdır."

"Göründüyü kimi, Azərbaycan malik olduğu təbii resurslarından səmərəli istifadə etməklə həm iqtisadi, həm də maliyyə imkanlarını artırır" söyləyən V.Rəhimzadə qeyd edib ki, bu uğurlarımız Azərbaycanın dostlarının, tərəfdaşlarının sayının artmasına stimul verir. "Əsrin müqaviləsi"nin imzalandığı dövrdə Azərbaycanın çox riskli ölkə olduğunu önə çəkən dövlətimizin başçısı İlham Əliyevin "Bu vəziyyətdə investisiyaları cəlb etmək asan vəzifə deyildi. Lakin biz bunu edə bildik və 1994-cü ilin sentyabr ayında "Azəri-Çıraq-Günəşli" yataqları üzrə müqavilə Azərbaycan və xarici şirkətlərdən ibarət konsorsium tərəfindən imzalandı. Bu, bizim tərəqqiyə, çiçəklənməyə və inkişafa doğru yolumuzun əvvəli idi" fikirlərinə istinad etsək, bu gün Azərbaycan dünyada ən sabit, təhlükəsiz, ən əsası etibarlı tərəfdaş kimi tanınır və nüfuz qazanır. Son 16 ildə enerji sektorundan asılılığın minimuma endirilməsi də ulu öndər Heydər Əliyevin gələcəyə hesablanmış neft strategiyasının bariz nümunəsidir.

# Nədən həm də "Koronavirussuz ada" olmayaq...

**Təbii bəla ya hardansa qaynaqlanan bioloji silah olması barədə müəyyən müzakirələr aparılsa da, əsas diqqətin Koronovirus deyilən təhlükənin qarşısının alınmasına yönəldilməsi indi əksər dünya ölkələrində fəaliyyətlərin mühüm istiqamətini təşkil edir.**

Bu sözləri "Bakı-Xəbər" qəzetinin baş redaktoru, politoloq Aydın Quliyev özünün facebook səhifəsində yerləşdirdiyi paylaşımında yazıb. Zaman-zaman dünyanı cənginə alan çeşidli viruslara qarşı Azərbaycanda aparılan effektli mübarizəni şərh edən politoloq daha sonra yazır:

Azərbaycan da istisna deyil və artıq virusun qarşısını almaq üçün əsaslı addımlar atılmaqdadır. Azərbaycan indiyə qədər də bir neçə qorxulu virusla mübarizədə dünyanın heç bir ölkəsinin əldə edə bilmədiyi nəticəyə yetişib. Məsələn, biz bütün dünya ilə birlikdə SARS, Donuz, Quş qripi, onlardan da xeyli qabaq "İspan qripi" deyilən xəstəlikləri keçərək gəldik. İndi 10 milyonluq ölkədə hətta bircə nəfər kiminsə Azərbaycanda bu xəstəliklərdən vəfat etdiyini xatırlaya və ya iddia edə bilərmi?! Deməli olar ki, dünyada 80 faiz ölkələrin hər birinin məzarlıqlarında dediyim xəstəliklərdən dünyasını dəyişmiş insanların məzarı olduğu halda, Azərbaycanın çox az sayda ölkələrin biri olaraq bu bəladan tam itkisiz qurtara bilməsi sizcə təsadüfdürmü? Hər halda, tanrının yar olmasının da müəyyən rol oynadığı bu xoşbəxt nəticənin başqa səbəbləri də var.

**Dövlət təhlükənin gəlməsindən çox əvvəl məsuliyyətini bir neçə qat artırdı və cəmiyyət öz davranışlarında dövlət tədbirlərini anlamağa çalışdı...**

Təcrübə göstərir ki, yoluxucu xəstəliklər kimi bəlalarla uğurlu mübarizənin böyük və həlledici şərti dövlətin və cəmiyyətin müqavimətlərinin sinxronlaşdırılması və bir-birinə uyğunlaşdırılmasıdır. Belə uyğunluq yoxdursa, milyardlarla vəsait qoyulsa da, tam nəticənin əldə olunma şansı çox da yüksək ola bilməz. Məsələyə hər şeydən qabaq adi məntiqi mülahizələrlə yanaşmaq lazımdır. Bütün işlərin hədəfi cəmiyyətin, insanların sağlamlığı və qəfil ölümlərin qarşısını almaqdırsa, valideynlərin gözləri qarşısında övladın ölüm prosesini çarəsizcəsinə seyr etmək kimi orta əsrlərə xas ürək ağrıdan mənzərələrdən yan keçməkdirsə, cəmiyyitimiz, hər bir vətəndaş bu prosesdən niyə və necə kənarda qala bilər?! Əgər dövlət böyük inzibati, kadr və maliyyə vəsaitlərini bu məqsəd naminə səfərbər edirsə, biz vətəndaşlar niyə bu işə ilk növbədə imkanımızda olan hərəkətlərlə, anlayışlarla dəstək verməyək?! Bizdən pul-para istənilmir ki?! Dünya ölkələri, ilk növbədə yoluxucu xəstəliklərlə mübarizə təcrübəsi olanlar bir çox maraqlı üsulları artıq sınaqdan keçiriblər. Birmənalı demək lazımdır ki, elmi-praktik sınaqdan keçirilmiş hər bir əks üsulun öz çəkisinə uyğun payı var və olub. Harda ki, dövlətin tədbirləri cəmiyyət tərəfindən düzgün anlaşılır, orada ya tam nəticə var, ya da ən azı, fəlakətlərin mühüm hissəsinin neytrallaşdırılması kimi nəticə var.

**Əgər dövlətin mötəbər təşkilatı məktəblərin müvəqqəti qapadılması qərarı verirsə, cəmiyyət buna necə reaksiya verir və verməlidir...**

Elm də, rəsmi orqanlar da sübut edib ki, istənilən viruslarla effektli mübarizənin əsas şərti insanlar arasında yaxın təmasların mümkün qədər azaldılması, təcridlilik, artıq ünsiyyətlərə yol verməmək, kütləvi tədbirlərin təxirə salınması, kütləvi iaşə xidmətlərinin göstərildiyi restoran tədbirlərinin azaldılması və s.-dən ibarətdir. Azərbaycanda məktəblərin müvəqqəti bağlanmasının müstəsna qoruyucu antivirus tədbiri olmasını cəmiyyətimizin mütləq əksəriyyəti qəbul etdi. Cəmiyyətimizin, insanların davranışlarını və mülahizələrini iki gündür müşahidə edirəm. Əksərən reaksiyalar məqbuldur, şüurlu vətəndaş yanaşması var. Ancaq heç də həmişə yox. Bəziləri məktəblərin bağlanmasını sanki dövlətin ona və ailəsinə gəzinti və səfərlər üçün əlavə vaxt hədiyyəsi kimi qəbul edir. Uşaqları götürüb filan rayona, filan ölkəyə gəzintiyə aparmaq, hansısa kütləvi tədbirdə iştirak etmək üçün əla şansdır deyərək, özü üçün məhdud utilitar, cəmiyyət üçünsə təhlükə dolu nəticə çıxaranlar da, təəssüf ki, var. Bu cür yanaşmalarda dövlətin yayıla bilən xəstəliklərlə mübarizə platformasının mahiyyətini anlamamaq, hətta yanlış və ziyanlı anlamaq kimi əlamətlər var. Məktəblər onunçün müvəqqəti bağlanmayıb ki, "Səftərqulu" buna bir fürsət kimi baxsın, böyük dövlət tədbirinin əsl mahiyyətini anlamaz dərəcədə özünü qanmazlığa qoysun, gəzintilərə, turist səfərlərinə çıxsın, ətraflarda dolaşan virus təhlükəsinin yayılma risqini artıraraq nəticədə dövlətin ölkə miqyaslı fəaliyyət planlarının effektini zəiflətsin. Dövlətin antivirus tədbirlərinə cəmiyyətdə tam sinxron yanaşmanın olmaması bu deməkdir və bunun praktikada hansı ziyanları vura biləcəyini təsəvvür etmək çətin deyil. Sadə mahiyyət budur: "Dövlətin və cəmiyyətin virus əleyhinə fəaliyyət və davranışları bütöv bir tamın tərkib hissələri olmalı, bir-birini tamamlamalıdır. Doğrudur, bu gün ölkəmizdə koronavirusa qarşı Milli Fəaliyyət Planı deyilən bir rəsmi sənəd yoxdur.

Bunun mövcudluğuna ehtiyac da yoxdur. Çünki dövlət qurumlarını, tək-tək insanları, bütün cəmiyyəti virus təhlükəsinə qarşı səfərbər etmək üçün yüzlərlə Milli fəaliyyət planlarından daha artıq topLarlama gücü olan bir silahımız var - hamının şüurlu varlıq olması. Hamı üçün eyni dərəcədə qorxulu olan xəstəliklərin ölkəmizə mümkün qədər ayaq basmaması üçün məsələyə sadəcə şüur və özünümüdafiə instinkti ilə yanaşmaq yetər. Dörd tərəfimiz olan ölkələr virusun içində olduğu bir vaxtda Azərbaycanda bu xəstəliyin real olaraq hələlik olmaması hamının üstündə yarpaq kimi əsərək qoruyacağı bir xoşbəxtlik deyilmi..

**Dövlət məktəbləri bağladı, bəs vətəndaşların təşəbbüsü nə olmalıdır...**

Dövlətin qoruyucu addımlarına düzgün reaksiya vermək və düzgün nəticələr çıxarmaq... Məsələn, bilavasitə vətəndaşların özlərinin təşəbbüskarı olduqları çoxlu sayda kütləvi tədbirlər var: restoran toyları, müxtəlif ziyafətlər və sair. Təbii ki, bu sayaq tədbirlərin hər biri cəmiyyətimizə hələlik olmayan virusları daşımaq və yaymaq risqinə malikdir. Dövlət iddia edə bilməz ki, kütləvi ziyafətlər qadağan olunsun. Bəlkə də ən son zərurət yaranacağı halda buna da getmək olar. Ancaq indi zərurət yoxdur, çünki virus hələ bizə çatmayıb və indi ictimaiyyətin öz təşəbbüsləri ilə müəyyən məhdu-




diyyətlərə getməyin zamanıdır. Məsələn, insanlar özləri müəyyən ziyafət və kütləvi yeyib-içmək məclislərini təxirə sala bilərlər və sair. Həm də artıq dünya məhdudlaşdırıcı tədbirlərin sayını artırmaqdadır. Biz niyə buna getməyək? Gözləməliyik ki, bəla qapını alsın?!

**Azərbaycan dövləti azı 5 istiqamətdə antivirus işləri aparır...**

Bunları şərti olaraq öz müşahidələrim əsasında qruplaşdırmaq istərdim:

1.Qoruyucu sərhəd tədbirləri.

2.Profilaktik gigiyenik tədbirlər.

3.Tibbi gigiyenik məzmunlu reklam-maarifləndirmə işləri.

4.Ümumölkə miqyaslı məhdudlaşdırıcı-inzibatı tədbirlər.

5.Yanlış sosial şəbəkə təqdimatlarının zərərsizləşdirilməsi.

Bu işlərin nəticəsidir ki, Azərbaycanda real olaraq koronavirusa yoluxma faktları hələlik yoxdur. Dövlətin adından görülən və nəticəsi belə olan prosesə cəmiyyətimizin də tam gücünü əlavə edə bilsək, nəticənin neçə dəfə böyüyə biləcəyini təsəvvür etməyə çalışın.

Cəmiyyətdən isə çox şey tələb olunmur - hər kəs özünü və ailəsini düşünsün, dövlətin virus əleyhinə tədbirlərinin mahiyyətini düzgün anlasın və öz tərəfindən müəyyən məhdudlaşdırıcı addımlara təşəbbüs göstərsin...Bu qədər sadə..

Azərbaycan bir sabitlik adasıdır. Nədən həm də "Koronavirussuz ada" kimi qalmayaq...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Əsədi çökdürən Türkiyə silahları erməniləri xoflandıran yeni motiv kimi - Azərbaycan bunlarla üstümüzə gəlsə...

**Bakı və Ankara arasında hərbi sahədə də dinamik inkişaf edən əlaqələr Ermənistanda böyük təşviş yaradır. Xüsusən də cari il ərzində Azərbaycanın Türkiyədən yeni silahlar almağa hazırlaşması fonunda düşmənin narahatlığı böyüyür.**

Bu narahatğıla başlıca səbəb isə Türkiyə ordusunun Suriyada keçirdiyi uğurlu əməliyyatlar və bu zaman yerli istehsal olan hərbi texnikadan geniş şəkildə istifadə olunmasıdır. Söhbət ilk növbədə pilotsuz uçuş aparatlarından (PUA) gedir.

Erməni ekspert Ruben Safrastyan bildirir ki, belə aparatların Azərbaycana verilməsi Dağlıq Qarabağ münaqişəsinin hərbi müstəvidə çözülməsi halında Ermənistan üçün böyük problem yaradacaq. Erməni ekspert Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğanın bir neçə gün bundan öncə Bakıya səfər etdiyini və Azərbaycanla yeni hərbi əməkdaşlıq müqavilələri imzaladığını xatırladıb:"Məni ən çox Türkiyənin Azərbaycana verəcəyi silah komponenti narahat edir. Türkiyə Azərbaycanı müasir silah və hərbi texnika ilə təmin edəcəyinə vəd verib. Çox güman ki, söhbət Bakının başqa müttəfiqlərdən ala bilmədiyi silahdan gedir. Bura ilk olaraq Suriyada Türkiyənin uğurla tətbiq etdiyi PUA-lar daxildir". Ekspertlər qeyd olunan xüsusda erməni tərəfinin narahatlığının, əslində əbəs olmadığını bildirir.

Hazırda Türkiyə ordusunun istifadə etdiyi pilotsuz uçuş aparatlarının Əsəd rejiminin qüvvələrini məhv etməsi dünya gündəmindən düşmür. Dünya mediasında yayılan məlumata əsasən, ilk dəfə bir ölkənin PUA-sı başqa bir ölkənin hava məkanını idarə edir. ABŞ-ın "Blumberq" portalı "Ankara texnoloji gücünü göstərdi" başlığı ilə yaydığı xəbərdə bu günə qədər görünməmiş sayda təyyarənin koordinasiyalı şəkildə hərəkət etdiyini diqqətə çatdırıb: "Uzaqdan idarə olunan onlarla PUA Suriya bazasını, kimyəvi döyüş tanklarını və hətta bir neçə qırıcı təyyarəsini vurdu". Türk ekspert Can Acun isə qeyd edir ki, Türkiyə İdlibdə dünya hərb tarixinin ilk PUA hava əməliyyatını həyata keçirib: "Bunun analoqu yoxdur. Bu, hərb ədəbiyyatına Türkiyənin qazandırdığı yeni müharibə texnikasıdır. Əsəd rejimi 8-9 illik Suriya müharibəsi zamanı belə ağır itki verməyib. Türkiyə Suriya xalqı üçün sadəcə bir neçə gündə bütün dünyanın 9 il ərzində etdiyindən daha çox iş gördü. Türkiyə Silahlı Qüvvələrinin bu əməliyyatından sonra Əsəd rejimi əvvəlki kimi mülki əhalini bombalaya bilməyəcək". Həqiqətən də Türkiyə ordusu pilotsuz və silahlı pilotsuz təyyarələri kütləvi şəkildə tətbiq etməklə Rusiya aviasiyasının Əsəd ordusunun illərdir davam edən müharibədə əldən düşmüş nizamsız bölmələrinə verdiyi hava dəstəyini son günlər ərzində xeyli neytrallaşdıra bilib. İndi qardaş ölkənin müasir PUA-larının Azərbaycanda da peyda olması erməni tərəfi üçün müsbət heç nə vəd etmir.

PUA-larla bağlı Azərbaycan, ümumiyyətlə, böyük nailiyyətlərə imza atmağı bacarıb. Belə aparatların həm yerli istehsalı həyata keçirilir, həm də Azərbaycan onun idxalını reallaşdırır. Qeyd edək ki, bu vaxta qədər Azərbaycan pilotsuz uçuş aparatlarını əsas etibarı ilə İsraildən alıb. Lakin yaxın təzlikdə qardaş Türkiyədən də belə aparatların alınması gözlənir. Söhbət burada ilk olaraq "Akıncı" PUA-larından gedir. "Baykar Holdinq" tərəfindən istehsal edilən "Akıncı" pilotsuz təyyarələri havada azı 24 saat fasiləsiz qala bilir. 6 min metrdən çox yüksəklikdə uçur və bazadan 150 kilometr uzaqda, tamamilə avtonom rejimdə əməliyyatlar həyata keçirə bilir. "Akıncı"nın ən mühüm özəlliklərindən biri də onun yerüstü stansiyadan asılı olmadan bütünlüklə avtonom rejimdə uçması, hədəfi müəyyən edib izləməsi və təchiz olunduğu müxtəlif tipli, lazerlə hədəfə yönləndirilən raketlərlə vurması və geri qayıdaraq yenə də avtonom rejimdə eniş etməsidir. Dronun faydalı yükgötürmə qabiliyyəti 350 kiloqrama qədərdir. Bu imkanı sayəsində "Akıncı" kifayət qədər böyük dağıdıcı gücə malik olan, yenə də tamamilə Türkiyə hərbi sənayesinin istehsalı olan, hədəfi yüksək dəqiqliklə vuran raketlərlə silahlanıb. Dronların "Bayraktar Akıncı" modeli isə ümumiyyətlə strateji təyinatlı pilotsuz döyüş təyyarələridir. Onlar daxildə 400 kiloqram, xarici asqılarında isə 950 kiloqram olmaqla cəmi 1350 kiloqram faydalı yük daşıya bilir. Qanadlarının eni 20 metrdir. "Akıncı" dronları TÜBİTAK SAGE və ROKETSAN şirkətləri tərəfindən istehsal edilən MAM-L, MAM-C, Cirit, L-UMTAS, Bozok, MK-81, MK-82, MK-83, Kiti-MK-82 qanadlı raketi, "Gökdoğan", "Bozdoğan", SOM kimi müxtəlif çeşidli "ağıllı" bombalar və hədəfə lazerlə yönləndirilən raketlərlə silahlandırıla bilir. Göyərtəsində 3 ədəd süni intellekt kompüteri olan "Akıncı" dronları eyni zamanda yerüstü kəşfiyyat aparır, sensorlar və yüksək həssaslığa malik kameralar vasitəsilə məlumatları toplayıb avtonom rejimdə analiz edərək komanda mərkəzinə ötürür. Digər mühüm özəlliyi isə budur ki, həmin pilotsuz sistemlər bütöv eskadrilya halında, avtonom rejimdə döyüşdə tətbiq edilə bilir, bu zaman dronlar süni intellekt vasitəsilə bir-birilə koordinasiya halında olur. Aydındır ki, "Akıncı" dronları və onların təchiz edildiyi silahlar Türkiyənin müdafiə sənayesinin istehsalı olduğu üçün Azərbaycanın bunları əldə etməsinə heç bir kənar siyasi əngəl ola bilməz.

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan artıq İsraildən müxtəlfi növ PUA-lar alıb. Onlardan biri isə ötən ildən ordumuzun iztiyarına verilən "SkyStriker" pilotsuz uçuş aparatlarıdır. İsrailin "Elbit Systems" şirkətinin istehsalı olan "SkyStriker" "gəzən sursat" və ya başqa sözlə, kamikadze pilotsuz uçuş aparatının ilk xarici istifadəçisi Azərbaycanın Dövlət Sərhəd Xidməti olub. Bu qurumun ardınca Müdafiə Nazirliyi də "SkyStriker"iin istifadəçiləri sırasına qoşulub.

Bir daha qeyd edək ki, Azərbaycan sözügedən hərbi pilotsuz uçuş aparatlarını əldə edən ilk xarici ölkədir. Özü də "SkyStriker" digər pilotsuz uçuş aparatlarından bəzi xüsusiyyətlərinə görə əhəmiyyətli dərəcədə fərqlənir. Onlar daha çox dəqiqliyə və uzaq məsafələrdəki hədəfləri vurmaq qabiliyyətinə malikdirlər. Qeyd edək ki, "SkyStriker" və ya başqa adı ilə desək, kamikadze dron o qədər də böyük olmayan pilotsuz uçuş aparatıdır. O, itələmə qüvvəsi verən propeller və elektrik mühərriki ilə təchiz edilib. Çəkisi 35 kiloqram, müxtəlif məqsədli döyüş hissələri isə 5 kiloqramdan 10 kiloqrama qədərdir. "SkyStriker" iki saata qədər havada qala bilir. Dronu idarə edən şəxs onu hədəfə doğru yönəldə, praktiki olaraq təmas nöqtəsinə çatdıra bilər və eyni zamanda, hücumu ləğv etmək imkanına da malikdir. Uçuş vaxtı diqqətəlayiq hədəf müəyyən edilməyibsə, PUA geri qayıda və paraşütün köməyi ilə yerə enə bilər. Onun əməliyyat sistemi istənilən hədəfi istənilən istiqamətdən, istənilən bucaq altında məhv etməyə imkan verir. Onu istehsal edən "Elbit Systems" isə İsrail hərbi sənaye kompleksinin PUA istehsalı üzrə ixtisaslaşmış dünyaca məşhur şirkətidir. İsrailin "Elbit Systems" şirkətinin istehsalı olan "SkyStriker" "gəzən sursat" və ya başqa sözlə, kamikadze pilotsuz uçuş aparatının ilk xarici istifadəçisi Azərbaycanın Dövlət Sərhəd Xidməti olub. Bu qurumun ardınca Müdafiə Nazirliyi də "SkyStriker"iin istifadəçiləri sırasına qoşulub.

Onu da xatırladaq ki, Azərbaycan ordusunun ixtiyarında artıq İsrailin "Israel Aerospace Industries" şirkətinin istehsalı olan "Harop" və "Aeronautics Defense Systems" şirkətinin istehsalı olan "Orbiter 1K" ("Zərbə-K") birdəfəlik kiçik zərbə PUA-ları var. 2016-cı ilin aprelində dördgünlük müharibənin gedişində həmin PUA-lardan erməni mövqelərinə zərbələrin endirilməsində istifadə edilib. "Harop"dan fərqli olaraq, "SkyStriker" və "Orbiter 1K", demək olar ki, səssizdir, çünki onlar elektrik mühərrikləri ilə hərəkətə gətirilir. Bununla yanaşı, Azərbaycan Hərbi Hava Qüvvələrinin inventarında İsrail istehsalı olan "Orbiter-2M" və "Aerostar" tipli pilotsuz uçuş aparatlarına rast gəlmək olar. 2011-ci ildə ölkəmizlə İsrail şirkətinin birgə qurduğu "AZAD sistemlər" müəssisəsi fəaliyyətə başlayıb. Bu müəssisədə "Orbiter-2" pilotsuz uçuş aparatlarının istehsalı həyata keçirilir. İndinin özündə ordumuzda istifadə edilən "Heron" və "Hermes" tipli pilotsuz uçuş aparatları da İsrail istehsalıdır. Ümumiyyətlə, İsrail yalnız öz ordusuna verdiyi və digər ölkələrin malik olmadığı pilotsuz uçuş aparatlarının istehsalını Azərbaycana etibar edir. Qeyd edək ki, Azərbaycan da dünyada zərbə pilotsuz aparatlara malik olan azsaylı ölkələrdən biridir. İndilikdə belə görünür ki. Azərbaycan yaxın tezlikdə Türkiyədən də PUA-lar alacaq. Onsuz da Türkiyə ilə də işbirliyi sayəsində yeni hərbi texnikaların alışı və istehsalı uğurla həyata keçirilir.

Bütün bunlar nəticə etibarı ilə Azərbaycanın hərbi qüdrətini daha da artırır. Elə Ermənistanı da qorxudan əsas məqamlardan biri məhz budur. Əslində, hərb müstəvisində Azərbaycanın düşmən Ermənistan üzərində kifayət qədər böyük üstünlüyə malik olması bu gün həm beynəlxalq miqyasda, həm də işğalçı ölkənin özündə belə açıq şəkildə etiraf olunur. Eyni zamanda ona da diqqət yetirilir ki, ötən dövr ərzində Azərbaycanın hərbi qüdrəti artdığı halda, Ermənistanda bunun tamamilə əksi yaşanıb. Hadisələrin bu səpkidə inkişafı Azərbaycanın qısa müddətdə düşməni hərbi müstəvidə darmadağın etməsinə tam şərait yaradır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Nikol Paşinyanın hakimiyyəti ələ keçirməsindən təxminən 2 il ötməsinə baxmayaraq, Baş nazir nə qədər çək-çevir etsə də, nəinki ölkə ictimaiyyətinin, hətta yaxın tərəfdarlarının da ümidlərini doğrulda bilmir. Hökumət başçısının vaxtilə verdiyi vədlər söz olaraq qalır, cəmiyyətdə siyasi ab-havanı sabitləşdirmək, milli iqtisadiyyatı irəli aparmaq üçün ölkədə elə bir təsirli tədbir görülmür.**



# Paşinyan İrəvan küçələrində şəxsən buklet paylamağı da özünə rəva gördü - vədlər doğrulmayanda, xalq üzə duranda...

***Məhəmməd Əsədullazadə:** ”Referendumun baş tutması üçün Paşinyanın İrəvan küçələrində populist mesajları və bukletlər paylaması heç də ona tam inam yaratmayacaq”*

Bunlara paralel, son günlər Ermənistanda Paşinyanla Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan arasında yaranan qarşıdurma artıq daha gərgin mərhələsini yaşamaqdadır. Məlum olduğu kimi, bir neçə həftə bundan əvvəl uzunmüddətli mübarizədən sonra Ermənistan parlamentinin təcili iclasında Konstitusiya Məhkəməsinin sədri və üzvlərinin istefasına dair referendum keçiriləcəyi barədə qanun layihəsi təsdiq edilib. Aprelin 5-də keçiriləcək referendumda siyasi qüvvələr iştirak etmək istəmədiklərini elan etdikləri halda, Paşinyan geri çəkilmək niyyətində deyil.

Erməni mediası yazır ki, ölkə vətəndaşları aprel referendumunun onların real problemləri ilə əlaqəli olmadığını artıq başa düşürlər. Buna görə də onların könüllü olaraq seçki məntəqələrinə gedib Nikolun xeyrinə səs verəcəyi elə də inandırıcı görünmür. Bildirilir ki, sosial proqramların ixtisar edildiyi bir şəraitdə Baş nazirin iqtisadi problemləri bir tərəfə ataraq ayyarım müddətində antikonstitusiya layihəsi üçün kampaniya aparacağına mənfi yanaşırlar. Çünki kampaniyaya sərf olunacaq vəsait nə Paşinyanın, nə də onun ətrafının deyil, sadə ermənilərin hesabına ödəniləcək.

Gülməli məqamlardan biri də ondan ibarətdir ki, Paşinyan konstitusiya dəyişikliklər ilə bağlı referendumda "bəli" səs verməyə çağıran bukletlər paylamaq üçün İrəvan küçələrinə çıxıb. Bu minvalla, Paşinyan bukletlər paylayıb, əhali ilə söhbət edib və bir neçə nəfərlə selfi çəkib. Görünən odur ki, Paşinyan əvvəl cəmiyyətə verdiyi vədlərin üzərindən sükutla keçərək, indi də ölkə sakinlərinin başını başqa vasitələrlə qatmaq istəyir. Bütün hallarda, Paşinyanın bu cür populist addımları nə deməkdir?

*”Çünki inqilabın ikinci illiyində ölkəyə vəd edilən islahatlar özünü doğrultmayıb və sosial vəziyyət müsbətə doğru dəyişməyib”*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Ermənistanda keçiriləcək konstitusiya referendumunda Paşinyanın əsas planı Konstitusiya Məhkəməsinin hakimini vəzifədən uzaqlaşdırmaqla yanaşı, öz hakimiyyətini möhkəmləndirməyə hesablanıb. Hesab edirəm ki, bu referendumun baş tutması üçün Paşinyanın İrəvan küçələrində populist mesajları və bukletlər paylaması heç də ona tam inam yaratmayacaq. Çünki inqilabın ikinci ilində ölkəyə vəd edilən islahatlar özünü doğrultmayıb və sosial vəziyyət müsbətə doğru dəyişməyib. Ona görə də referendumda xalqın böyük ölçüdə səs verməyi reallaşmayacaq. Ancaq referendum baş tutsa da, burada seçicilərin kiçik bir hissəsi iştirak edəcək. Paşinyan populizmə və siyasətdə əsasən yalana üstünlük verir.

Referendum öncəsi onun belə jestləri, küçədə vətəndaşlarla görüşü blefdir. Ümumiyyətlə, Ermənistanın demokratik bir sistemlə inkişafı mümkün görünmür. Orada baş verənlər Paşinyanın öz siyasi ambisiyalarıdır. Konstitusiya referendumu da onun kimi. O baxımdan hesab edirəm ki, bu vəziyyət çox davam etməyəcək və ölkədə siyasi proseslər gərginləşəcək".

***Vidadi ORDAHALLI***

**Dağlıq Qarabağdakı qondarma separatçı qurumda vəziyyət gərginləşir. Bəzi erməni media orqanları bunu inqilaböncəsi vəziyyətə bənzədirlər. Məlumata görə, separatçı qurumda yaşayan əhalinin narazılığı artır. Bunun başlıca səbəbi sosial-iqtisadi vəziyyətin dözülməz dərəcədə ağır olmasıdır.**



# Qondarma "DQR" əhalisinin azı 80 faizi üzücü borc içində - "Azadlıq" radiosunun dəhşətli sorğusunun yayımı dayandırıldı

***Məhəmməd Əsədullazadə:** ”Bu onu göstərir ki, Ermənistan işğalda saxladığı ərazilərdə ermənilərin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq iqtidarında deyil”*

Erməni mediası yazır ki, qondarma "DQR"də əhalinin 80% -dən çoxu illərdir kredit çuxurundan çıxa bilmir. Əhali soruşur ki, "artsaxlıların" qaçılmaz iqtisadi rifahı barədə "DQR" hakimiyyətinin verdiyi çoxsaylı vəd hara getdi? Qarabağda, demək olar ki, hər ikinci ailə elementar məişət texnikası almaq üçün ailənin daş-qaşını girov qoymaq məcburiyyətində qalır, avtomobil isə yalnız mənzil və evləri girov qoymaqla alınır.

Bu arada Qarabağdakı ağır sosial-iqtisadi vəziyyətlə bağlı "Azadlıq" radiosunun Ermənistan xidməti vidiosüjet yayıb. Videosüjeti "Azadlıq" radiosunun Ermənistan xidmətində yaydıqdan sonra radionun Ermənistan redaksiyası bu süjeti blokladı. Daha sonra həmin radionun Ermənistanda yayımına məhdudiyyət qoyulub. Həmin süjetdə radiostansiyanın irəvanlı müxbiri Sarqis Arutyunyan Qarabağ sakinləri arasında sorğu keçirib və adamların 99% -i bildirib ki, artıq ərzaq məhsullarını borca alırlar. Məlum olub ki, separatçı qurumda kriminal rejim hökm sürür.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Ermənistan işğalda saxladığı Azərbaycan ərazilərində ermənilərin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq iqtidarında deyil: "Bu yöndə görülən işlər imitasiya xarakterli olub. Bu gün Ermənistanın özündə əhali çətin sosial durumdan ölkəni tərk edir. Qarabağda yaşayan əhali necə burada dolanacaq? Əsasən Xankəndidə bir qisim ermənin dolanışığı normaldır. Digər ərazilərdə ermənilər çox pis vəziyyətdə yaşayırlar. Çəkilən kadrlardan görünür ki, elementar yaşayışa malik deyillər. Necə deyərlər, tövlədə yaşayırlar. Ermənistan burada sosial vəziyyəti yaxşılaşdırmaq üçün heç bir güclü maliyyə imkanlarına sahib deyil. Onlar Qarabağa ikinci sort kimi baxırlar. Bundan sonra da Ermənistan dövlət siyasətində buradakı ermənilərin vəziyyətini yaxşılaşdırmaq üçün heç bir layihə irəli sürməyəcək.

*”Demokratiyadan danışan Paşinyan söz azadlığını boğur”*

İşğal olunmuş ərazilərdə Ermənistanın məskunlaşma siyasəti bir il ərzində fiaskoya uğrayır. Digər yerlərdən köçürülən ailələr burada 6 aydan artıq yaşamırlar. Separatçı rejimin üzvləri yalnız burada öz maddi imkanlarını genişləndirirlər. Hesab edirəm ki, nə qədər işğal faktoru aradan qalxmayıb, günü-gündən ermənilər Qarabağda çətin vəziyyətlə üzləşəcəklər. Bir müddətdən sonra digər ərazilərdən də köçəcəklər. İşğalçı ölkə və burada cinayətkar qrup birlikdə Qarabağda məskunlaşma siyasətlərini rahat reallaşdıra bilmirlər. Çünki infrastruktur və digər yaşam imkanları üçün maliyyə yoxdur. Ona görə də ermənilər burada yalnız çobanlıqla məşğuldurlar. Erməni generalları və separatçıların mal-qoyununu otarırlar. Bir qisim qocalar da cüzi pul müqabilində Azərbaycanla təmas xəttində postda dayanır. Demokratiyadan danışan Paşinyan söz azadlığını boğur".

***Vidadi ORDAHALLI***



# Ermənistanın azərbaycanlılara qarşı soyqırımlar tarixi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etməsi nəticəsində yüzlərlə kənd, qəsəbə, şəhər viran edilib, əhalisi şəhid olub, əsir və girov götürülüb, bir qismi isə məcburi köçkünə çevrilib.**

## IV yazı

Ermənistan və onun havadarları Xocalıda, Xocalıya qədər isə işğal etdikləri digər ərazilərimizdə xalqımıza qarşı qanlı cinayətlər törədib, kütləvi qırğın, soyqırım aktı həyata keçiriblər. Erməni şovinistlərinin, daşnaklarının Azərbaycan xalqına vurduğu yaralar hələ də qanayır. Ermənilərin tükürpədici qətllər törətdiyi Xocalının Meşəli kəndi onlar tərəfindən tamamilə viran edilib.

Azərbaycan Respublikasının Xocalı rayonunun kəndi olan Meşəlinin işğalı, əhalisinin şəhid edilməsi hadisəsi qanlı bir faciə kimi yaddaşlarda yaşayır.

1992-ci ildən Ermənistan silahlı qüvvələrinin işğalı altında oan Meşəli kəndi qədim bir türk kəndidir və digər ərazilərimiz kimi ermənilər bu kəndimizə də öz mənfur caynaqlarını uzadıblar.

Meşəli kəndinin adı türk dilində izah olunur və meşəlik yerdə yerləşdiyinə görə belə adlandırılıb. Xocalıdan əvvəl də ermənilər dinc əhaliyə qarşı amansız vəhşiliklər edib, kütləvi qırğınlar törədiblər. Xocavənd rayonunun Qaradağlı kəndində 1992-ci il fevralın 17-dən 18-nə keçən gecə 77 nəfər dinc kənd sakini qətlə yetirilib, 84 nəfər isə əsir götürülüb. Çəmənli, Malıbəyli, Kərkicahan, Meşəli kəndlərindəki erməni vəhşilikləri azərbaycanlılara qarşı törədilmiş cinayətlər sırasında amansızlığı ilə seçilir. Xocalı soyqırımına gedən yol bu kənddən və digər kəndlərimizdən başlayıb.

Erməni silahlı qüvvələri tərəfindən Malıbəyli və Quşçularda törədilən qətliamlar tarixə qanlı izlər salıb. 10 fevral - 12 fevral 1992-ci il tarixlərində ermənilər Şuşa rayonunun Malıbəyli, Aşağı Quşçular, Yuxarı Quşçular kəndlərini də darmadağın edib, əhalisini öldürüblər. Bu kəndlərin əsas hədəf kimi seçilməsinə səbəb onların strateji baxımdan əlverişli mövqedə yerləşməsi idi.

Malıbəyli və Quşçular qətliamından danışan tarixçilər qeyd edirlər ki, Qarabağ müharibəsi zamanı 10 fevral - 12 fevral 1992-ci il tarixlərində erməni silahlı birləşmələri tərəfindən Şuşa rayonunun Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndlərinə eyni zamanda edilən hücum nəticəsində təxminən 50-yə yaxın dinc etnik azərbaycanlı qətlə yetirilib.

Hadisələrin gedişatından və qətliamdan danışan tarixçilər qeyd edirlər ki, Şuşa rayonunda əhali tərkibi azərbaycanlılardan ibarət olan Malıbəyli və Quşçular kəndləri (administrativ olaraq Aşağı Quşçular və Yuxarı Quşçular olaraq ayrılır) rayonun inzibati mərkəzi olan Şuşa şəhərinə yaxın dağlıq ərazidə - yaylaqlarda yerləşirdi. Kəndlərdə təxminən 4000 nəfərə yaxın əhali yaşayırdı. 1988-ci ildə Xocalıya olduğu kimi, bu kəndlərə də Ermənistandan zorla çıxarılmış, təxmini sayı 1500-ə yaxın köçkün yerləşmişdi. Qarabağ müharibəsi başlanan andan etibarən bu kəndlər erməni silahlı birləşmələrinin əsas hədəflərinə çevrilmişdilər. 1991-ci ilin oktyabr ayından etibarən Malıbəyli tamamilə mühasirədə idi.

1992-ci il fevralın 5-də kəndlərin üstündə uçan bir vertolyot kəndlilərə üzərində yaşayış yerlərini tərk etmək üçün onlara iki gün vaxt verildiyi yazılan bildirişlər payladı. Bölgə 1991-ci ildən mühasirədə olduğu üçün yeganə giriş-çıxış vertolyotla mümkün idi. Şuşaya uçan axırıncı vertolyot yanvarın 28-də ermənilər tərəfindən vuruldu.

Azərbaycan Silahlı Qüvvələrinin Xankəndi şəhərinin düşmən işğalından azad edilməsi üçün təşkil etdiyi hücumlara və yaxınlıqda yerləşən erməni kəndlərinə doğru edilən həmlələrə son qoymaq məqsədilə ermənilər zirehli texnika və ağır artilleriyadan istifadə etməklə Malıbəyli və Quşçular kəndlərinə hücum etdilər.

Fevralın 10-u gecə yarısı rus silahlılarının da yardımı ilə erməni silahlı birləşmələri Malıbəyliyə hücum etdilər. Kənddəki qadın və uşaqlar Quşçular kəndinə qaçdılar. Kənddəki evlər yandırıldı. Ümumilikdə isə hər iki kəndin sakinləri şəhərə qədər düşmənlə vuruşdular. Yaxınlıqdakı Şuşa və Xocalı şəhərlərinə gedən yollar kəsildiyindən, kəndlərə ən yaxın yaşayış məskəni Ağdam rayonunun Abdal-Gülablı kəndi idi, lakin bu kəndə gedən yol ermənilərin məskunlaşdığı kəndlərdən keçirdi.

Tarixçilər qeyd edirlər ki, Ermənistanın təcavüzkar silahlı birləşmələrinin tərkibinə, həmçinin, Suriya, Livan, ABŞ və Fransadan gəlmiş könüllü ermənilər də qatılmışdılar. ATƏT-in sülhməramlı missiyasının Qarabağda iştirakı zamanı Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndləri erməni silahlı birləşmələri tərəfindən ələ keçirildi. Bununla da Şuşa və Xocalı şəhərləri tamamilə blokadaya alındı.

Tarixçilər bildirirlər ki, tarixdə bir əsrdə neçə dəfə erməni-azərbaycanlı müharibəsi olub və bu, XX əsrin sonlarına yaxın bir də təkrarlanıb, bu dəfə daha dəhşətli şəkildə.

Tarixçi Həyat Məhərrəmova qeyd edir ki, həmişə də erməni hiyləsi, erməni bicliyi özünü göstərib, özgə boşqabı yalayan, ikiüzlü, yaltıq, mənfur ermənilər ah-naləqopardaraq haqqı nahaqqa boğdura biliblər. O vurğuladı ki, erməni terrorçuları 1988-1993-cü illərdə Azərbaycan vətəndaşlarına qarşı çoxlu terror əməli törədiblər. Onlardan biri də Meşəli, Malıbəyli, Quşçular faciəsidir. Həmçinin, qeyd etdi ki, erməni silahlı qüvvələri Qarabağda müharibəyə başlayarkən hədəf torpaqlarımızı silah gücünə ələ keçirmək olub. Azərbaycanın o vaxtkı rəhbərləri isə bunu münaqişə adlandırır, xalqı aldadır, torpaqların işğalını ictimaiyyətdən gizli saxlayırdılar...

H. Məhərrəmova bildirir ki, hələ 1991-ci ildə Meşəli kəndi ermənilərin hədəfində idi. "Ermənistan silahlı qüvvələri və onun muzdlu döyüşçüləri tərəfindən Meşəli kəndi böyük vəhşiliklə və amansızlıqla yer üzündən silindi. 1991-ci il dekabrın 23-də, səhər saat 7 radələrində erməni qüvvələri kəndi mühasirəyə almış və son evədək yandırmışlar. Çox böyük insan təlafatı olub. İlkin məlumata görə, ermənilər 30 nəfərdən artıq azərbaycanlını (qocaları, qadınları, uşaqları) qətlə yetirmiş, bir çoxunu isə vəhşicəsinə yandırmışlar. İtkin düşənlər olub. Kənd sakinlərindən 3 nəfərin evindən heç kəs çıxa bilməyib, 12 nəfər qadın, uşaq, qoca diri-diri yandırılıb.

Meşəli faciəsi bir daha göstərdi ki, ermənilər Dağlıq Qarabağı azərbaycanlılardan tam təmizləmək üçün Moskvadan və İrəvandan xüsusi göstəriş alıblar.

Meşəlidə genosid törədildi. İki gün ərzində vertolyotlar vasitəsilə günahsız adamların meyitləri daşınıb". O, Nəbilər kəndinin də ermənilər tərəfindən viran edildiyini qeyd etdi. Bildirdi ki, 1992-ci il yanvarın 18-də erməni silahlı dəstələri Şuşa rayonunun Nəbilər kəndinə hücum edərək kəndi oda qaladılar. Qeyri-bərabər döyüşdə ermənilər üstünlük qazanaraq kəndi xarabazarlığa çevirmişlər.

Kənd əhalisi Şuşaya pənah aparıb. Günəşli kəndinin də eyni faciə ilə üzləşdiyini qeyd edən tarixçi vurğuladı ki, 1992-ci il fevralın 5-də Xocavənd rayonunun Günəşli kəndi ermənilər tərəfindən işğal olunub. 1992-ci il fevralın 11-də ermənilər tərəfindən Malıbəyli və Quşçular kəndlərinin tamamilə yandırıldığını xatırladan ekspert bildirdi ki, hər iki kənddən 13 nəfər girov götürülüb, 15 nəfərdən artıq adam şəhid edilib.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Azərbaycan neftinin Avropaya yeni maraqlı çıxış marşrutu - məşhur Odessa-Brodı kəməri "dirildilir"

**Məlum olduğu kimi, MDB məkanında ölkəmizin əsas müttəfiqlərindən biri olan Belarus neft ehtiyacını ödəmək üçün Azərbaycandan "qara qızıl"ın alınmasında maraqlıdır. Bu xüsusda gündəmə gələn məsələlərdən biri də Azərbaycan neftinin Ukrayna vasitəsilə Belarusa çatdırılmasıdır.**

Bunun üçün Odessa-Brodı kəmərindən istifadə də gündəmdədir.

Qeyd edək ki, Odessa-Brodı kəməri Qara dənizdə Odessa və Lvov vilayətində Brodı şəhərində 2001-ci ildə inşa edilib. Burada o, "Drujba" boru kəməri ilə birləşir. Müxtəlif vaxtlarda bu boru kəməri Rusiya neftini kiçik həcmlərlə Brodıdan Odessaya, Belarusa tədarük edib. Qalan vaxtlarda, demək olar, kəmər istifadəsiz qalıb. İndi Ukrayna bu kəmərin aktiv şəkildə istifadə edilməsində olduqca maraqlıdır. Amma bu kəmərdən istifadə indiki halda digər parametrlər baxımından Azərbaycan üçün maraqlıdır. Çünki bu, Azərbaycan neftinin tamam yeni bir marşrutla Avropaya çatdırılması deməkdir. Belə ki, bu zaman neft Azərbaycandan Ukrayna ərazisi ilə Çexiya, Macarıstan, Slovakiya kimi Mərkəzi Avropa ölkələrinə də nəql edilə bilər. Qeyd edək ki, Odessa-Brodı neft boru kəmərinin illik ötürücülük qabiliyyəti 14,5 milyon ton təşkil edir.

"Sarmathia" beynəlxalq boru kəməri müəssisəsinin baş direktoru Sergey Skripka da bildirir ki, Odessa-Brodı Xəzər neftinin yeni marşrutla Avropaya çatdırılmasçı deməkdir: "Ukraynada Odessa-Brodı boru kəmərindən neft nəqlinin bərpası ilə Avrasiya Nəqliyyat Dəhlizinin hazırda yeganə çatışmayan halqası olan Polşa ərazisindəki Brodı-Adamova Zastava neft kəməri layihəsini tezləşdirə bilər". Burada bir daha xatırladaq ki, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) mart ayında Belarusa Odessa-Brodı kəməri vasitəsilə iki tanker, yəni 160 min tona yaxın neft ixrac etməyi nəzərdə tutur. Sergey Skripka isə "report"a açıqlamasında bildirib ki, Azərbaycan və Xəzər neftini Odessa-Brodı kəməri ilə daha müntəzəm nəql edincə eyni layihənin parçası olan Brodı-Adamova Zastava kəməri də bir o qədər tez tikilib istifadəyə veriləcək: "Ukrayna 2011-ci ildə də Belarusda emal olunması üçün Odessa-Brodı kəmərilə neft nəql edib. Həmin neft Belarusun əvvəlcə Venesueladan aldığı neftin sonradan "Azerilight"la əvəzlənməsi ilə bağlı SOCAR-ın da iştirak etdiyi birillik müqavilə çərçivəsində tədarük edilirdi. Brodı-Adamova Zastava boru kəmərinin ötən il təsdiqlənmiş texniki iqtisadi əsaslanmasına görə, kəmərlə nəql olunacaq neftin əsasən Polşa və Almaniya müəssisələrində emal ediləcəyi bildirilir. Bu layihənin həyata keçirilməsi ilə Xəzər ölkələri neftlərini Avropa bazarına çıxarmaq üçün əlavə etibarlı ixrac marşrutu əldə edəcəklər. Bu xəttin 377 kilometrlik uzunluğunun 120 kilometri Ukrayna, 257 kilometri isə Polşa ərazisindən keçəcək. Layihənin ümumi dəyəri 360 milyon avrodur". S.Skripka hazırda layihə çərçivəsində mövcud yol infrastrukturunun istifadəsinə dair aidiyyəti qurumlar arasında razılaşdırmaların həyata keçirildiyini qeyd edib.

Xatırladaq ki, 2004-cü il iyulun 12-də Ukraynanın "Ukrtransnafta" və Polşanın "PERN Przyjazn" şirkətlərinin yaratdığı "Sarmathia" MMC-nin iştirakçıları arasında SOCAR-ın özünün də 25,32 faiz payı var. Bütün bunlar isə o deməkdir ki, Azərbaycan nefti artıq Ukrayna, Polşa vasitəsilə yeni bir marşrutla Avropaya çatacaq. Özü də bu prosesdə bütün iştirakçılar maraqlıdır.

İndilikdə isə ilk növbədə Belarus Azərbaycandan neft nəqlinə xüsusi maraq göstərir. Bu ölkənin "Qomeltransneft Drujba" şirkətinin baş mühəndisi Andrey Veriqo bildirir ki, Belarusun "Qomeltransneft Drujba" magistral neft boru kəmərinin operatoru Azərbaycan neftini Ukraynadan Odessa-Brodı neft boru kəməri ilə Mozır neftayırma zavoduna tədarük etməyə praktik olaraq hazırdır: "Bu, normal nəql prosesidir. Ukraynadakı operator "Ukrtransnafta"dır, şirkət bütün avadanlıqları yaxşı vəziyyətdə saxlayır. Boru kəməri heç vaxt istismardan çıxarılmayıb, texniki emal nefti ilə doldurulub, istismara hazırdır". Onun sözlərinə görə, Belarus tərəfi hələ 2011-ci ildə Qara dəniz vasitəsilə Odessadan neft nəql edib:"Boru kəməri sistemimiz həmin vaxt da işləyib, indi də işləməyə hazırdır". O, Belarusa neft tədarükünün mart ayında Odessa limanına tankerlərin gəlişindən sonra planlaşdırıldığını təsdiqləyib.



**Hazırda Azərbaycanla Belarus və Ukrayna arasında energetika sahəsində qarşılıqlı faydalı əməkdaşlıq uğurla davam etdirilir. Hətta Ukraynanın TANAP qaz kəmərinə qoşulması da gündəmdə qalır. TANAP əlavə qaz kəməri infrastrukturu inşa etmədən Ukraynaya qaz nəqlinə imkan verir. Belə ki, Türkiyədən Bolqarıstana, Bolqarıstandan Rumıniyaya, Rumıniyadan Ukraynaya boru kəməri artıq mövcuddur. Bu məsələ üzərində də hazırda intensiv müzakirələr gedir. Proseslər göstərir ki, ümumiyyətlə, bir çox MDB və Avropa ölkələri enerji təhlükəsizliyini əhəmiyyətli dərəcədə Azərbaycana etibar edir.**

***Ramil QULİYEV***

# Paşinyan iqtidarına yeni ictimai qınaq - ölkə Sorosun oyuncağına çevrilir...

**Bugün Ermənistan iqtidarı üçün ən böyük problemlərdən biri də Corc Sorosun muzdlularının cəmiyyətdə böyük antipatiya yaratması, həmçinin ölkənin xarici siyasət əlaqələrinə ciddi zərbə vurmasıdır.**

Məsələ burasındadır ki, hakimiyyətdə məhz Corc Sorosun muzdluları bir çox vəzifələrdə təmsil olunur. Məsələ vaxtaşırı gündəmə gəlsə də, baş nazir Nikol Paşinyan problemin çözümü istiqamətində hansısa addım atmayıb. Erməni mediası yazır ki, əslində, Paşinyanın özünün də iqtidara gəlişində Corc Sorosun rolu olduğundan, o bu şəxsə bağlı insanlara qarşı hansısa addım ata bilmir.

Amma problem həm də bundadır ki, Paşinyanın "məxməri inqilab" zamanı verdiyi vədləri yerinə yetirə bilməməsi də Corc Sorosun muzdluları üzündən baş verir. "Soros Fondu"nun Ermənistandakı əsas koordinatorlarından biri sayılan baş nazirin müavini Tiqran Avinyanın isə hələ də ölkə həyatı ilə bağlı bütün məsələlər barədə Corc Sorosa birbaşa məruzə etməsi barədə məlumatlar səslənir. Bunları şərh edən Ermənistanın VETO ictimai-siyasi hərəkatının rəhbəri Narek Malyan bildirir ki, Sorosun Ermənistan iqtidarındakı adamları ölkəni sadəcə məhvə doğru sürükləməkdə davam edir və Paşinyan buna qarşı hansısa addım atmağa cəsarət etmir:"İndi hakimiyyətin qollarını ələ keçirmiş oliqarx Corc Sorosun muzdluları pul qarşılığında fəaliyyət göstərməyə və Ermənistan vətəndaşlarını xarici gündəmə məcbur etməyə davam edir, bunu açıq və məkrli şəkildə edir". Malyanın sözlərinə görə, Sorosçular hər şeyi məhv edir, əsasən xüsusi xidmət və hüquq-mühafizə orqanlarını hədəfə alırlar: "Onlar zabitlərə, vətənpərvərlərə, adət-ənənələrə nifrət edirlər, onlara yalnız bir şey lazımdır: hər hansısa dövlətin olmaması üçün dövləti məhv etmək. Bunu yoxlamaq istəyirsinizsə, Sorosun qondarma əsərlərini oxuyun. Siz onun nə əldə etdiyi barədə çox şey biləcəksiniz. Onun planlarında dövlətlərin güclənməsi və sair kimi şeylər barədə söz yoxdur. Sorosçuların məqsədi zabit heyətini gözdən salmaq, hüquq-mühafizə sistemini, ordunu dağıtmaq, dövləti məhv etməkdir. Sorosçuların fəaliyyəti nəticəsində ölkəmizin milli təhlükəsizliyinə ziyan vurulduğunu dəfələrlə bildirmişik. Bu ofisdən ölkəmizə qarşı işləyənlərə maliyyə ayrılır, pozğunluğa rəvac verilir. Bizim qanunlar ölkəmizin təhlükəsizliyinə xələl gətirən hər hansı təşkilatın fəaliyyətinə yol vermir. Amma Paşinyan bu qanunları pozur. Sorosa bağlı təşkilatın qadağan olunması barədə məhkəmə iddiası qaldırmağa belə yol verilmir".

Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin sabiq rəisi David Şahnazaryan da qeyd edir ki, erməni xalqının məhvində Sorosun adamları indi xüsusi rol oynayır. O bildirir ki, Corc Sorosun qrantından istifadə edən beynəlxalq təşkilatlar Ermənistanda baş vermiş "məxməri inqilabı" hətta Dağlıq Qarabağda da həyata keçirməyə çalışırlar. Siyasətçinin sözlərinə görə, bu proseslərə orada cari il martın 31-də keçiriləcək "seçkilər" zamanı start verilməsi də tamamilə gözləniləndir. O, Sorosun hələ də Ermənistana müdaxiləsinə Paşinyanın hansısa müqavimət göstərməməsini yenə pul amili ilə izah edib. Şahnazaryanın sözlərinə görə, indi Paşinyanın həyat yoldaşı tamamilə qeyri-şəffaf fondlar yaradır, onun adamları məhz Sorosdan böyük həcmdə pullar alır. Bu səbəbdən də Paşinyan Sorosa qarşı heç bir addım atmır. Erməni siyasətçi bu vəziyyətdə ölkə vətəndaşlarını beynəlxalq təşkilatların fəaliyyətini nəzarətdə saxlamağa çağırıb və onları maliyyələşdirən Corc Soros fondunun rəhbərinin bu ölkədə "məxməri inqilab"a kömək etdikləri barədə bəyanatını xatırladıb. O, hüquq-mühafizə orqanlarını da beynəlxalq təşkilatların ölkənin daxili işlərinə müdaxiləsi ilə bağlı tədbirlər görməyə, onların fəaliyyətini qadağan etməyə səsləyib. Rusiyalı ekspert Vitali Arkov isə bildirir ki, məhz Sorosun fəaliyyəti nəticəsində Ermənistanın Moskva ilə problemləri dərinləşməkdə davam edir:"Nikol Paşinyan və onu nəzarətdə saxlayan Corc Soros "yuvasının quşları" daha fəal şəkildə Rusiya ilə münasibətləri pozmaqda davam edir. İrəvan üçün acı həqiqət budur ki, bütün bu illər ərzində Ermənistan yalnız Moskvanın dəstəyi sayəsində fəlakətə uğramayıb. Paşinyan hökumətinin Ermənistanı yönəltdiyi Qərb ölkələrindən heç biri Rusiya kimi İrəvana kömək etməyəcək. Ermənistandakı vəziyyət indi gördüyümüz eyni ssenariyə uyğun inkişaf edərsə, Paşinyan və komandasının hakimiyyəti əllərində saxlaması getdikcə daha çətin olacaq. Getdikcə aydın olur ki, Ermənistan klassik bir sxemlə inqilabdan diktaturaya doğru gedir. Bunu da Soros və digər Qərb təşkilatlarından gələn göstərişlərə əsasən edir.



**Belə vəziyyət erməni cəmiyyəti kimi Rusiyanı da qane etmir. Amma Paşinyan bunları hələ də reallıq kimi qəbul etməkdə çətinlik çəkir". Kreml, əslində, Paşinyanın komandasında Soros Fondu ilə əlaqəli rusiyafob baxışda olanların sayının çox olmasının fərqindədir. Bu xüsusad Paşinyana edilən xəbərdarlıqlar isə istənilən nəticəni vermir. Bu səbəbdən Moskvanın daha sərt formada Paşinyana qarşı hərəkətə keçməsi istisna olunmur.**

***Nahid SALAYEV***

**Koronavirus (COVİD - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir.**



# Məktəblər ona görə bağlanmadı ki, kimlərsə buna istirahət və gəzinti şansı kimi baxsın...

## *Məlahət Mürşüdlü: "Çoxları elə bilir ki, həmin xəstəlik adi qripdir"*

Nazirlər Kabinetinin yanında Operativ qərargahdan bildirilib ki, yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi, ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə 2020-ci ilin mart ayının 3-dən 9-dək (ilk tədris günü mart ayının 10-u müəyyən edilir) bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılmasına və bununla bağlı bütün tədbirlərin təxirə salınmasına dair qərar qəbul olunub.

Bu müddət ərzində Təhsil Nazirliyinə və tabeliyində təhsil müəssisələri olan müvafiq icra hakimiyyəti orqanlarına bütün təhsil müəssisələrində tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlərin davam etdirilməsi tapşırılıb. Dünyada sürətlə yayılan bu epidemiyadan kimsə sığortalanmayıb. Xəstəliyin əlamətləri hətta dünyanın ən inkişaf etmiş ölkələrində belə özünü göstərir. Dünya dövlətləri maksimum dərəcədə çalışırlar ki, əhalilərini belə epidemiya ilə üzüzə qoymasınlar. Bunun üçün bir sıra qabaqlayıcı tədbirlər görülür.

Azərbaycanda, demək olar ki, bu virusun daşıyıcısı aşkar edilməyib. Tranzit kimi ölkəmizdən istifadə edən bəzi əcnəbi vətəndaşlarda bunun aşkarlanmasının isə bizə heç bir aidiyyəti yoxdur. Azərbaycan hakimiyyətinin atdığı addımlardan görünür ki, dövlət öz vətəndaşını maksimum dərəcədə bu epidemiyadan kənarda tutmağa çalışır. Bunun ən bariz nümunəsi kimi təhsil ocaqlarında bir neçə günlük dərslərin təxirə salınmasını göstərə bilərik. Bu addım heç də o anlama gəlmir ki, məktəb və ya ali təhsil ocaqlarımızda bu xəstəliyin simptomları müşahidə edilib. Qabaqlayıcı tədbirlər ona görə görülür ki, insanların kütləvi yerlərdəki təmasları minimuma ensin. Yoluxucu xəstəliklərlə mübarizə dövlətlə vətəndaşın sinxron yanaşmasını tələb edir. Yəni hansısa vətəndaş şəxsi gigiyenasına fikir verməyəcəksə, dövlətin müdaxiləsi olsa belə, onu xəstəlikdən xilas etmək mümkün olmayacaq. Sosial şəbəkələrdə məktəblərin bağlanmasına valideynlərin verdikləri reaksiyalar adamı təəccübləndirir. Əksəriyyət bunu böyük sevinc və ələ düşən fürsət kimi dəyərləndirib. Yazırlar ki, məktəb bağlandısa, uşaqları götürüb, hansısa istirahət məkanına və ya restorana getmək olar. Bunlar anlamırlar ki, dövlət bu addımı elə kütləvi yerlərdə təmasları azaltmaq üçün atıb. Dövlət kiminsə övladının qayğısına qalıb bunu edirsə, valideynin də borcudur ki, öz üzərinə düşəni etsin. Özünü və uşaqlarını kütləvi təmas yerlərindən kənarda saxlasın.

Dövlətin gördüyü qabaqlayıcı tədbirlərlə bağlı vətəndaşlarımızın məsuliyyəti necə müəyyənləşməlidir?

Təhsil eksperti Məlahət Mürşüdlü "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə tendensiyanı onun özü də müşahidə edib: "Bütün bunların obyektiv səbəbi var. Ancaq mən düşünmürəm ki, bizim müşahidə etdiyimiz və addımlarını yanlış saydığımız valideynlər cəmiyyətdə mütləq əksəriyyətdir. Vətəndaşların bir hissəsi təhsilin niyə dayandırıldığının mahiyyətini anlamır. Bilmirlər ki, bu addım qorxulu epidemiyanın yayılması ilə bağlı qabaqlayıcı tədbirlər kimi atılıb. Hökumət tərəfindən atılan bu addımın əhəmiyyəti sözsüz ki, böyükdür. Sosial şəbəkələrdə dediyiniz tendensiyanın üzə çıxması məlumatsızlıqdan irəli gəlir. Çoxları elə bilir ki, həmin xəstəlik adi qripdir. Yayılan virusun əsl mahiyyəti izah olunmalıdır. Bütün vasitələrlə əhaliyə çatdırılmalıdır ki, ona ciddi yanaşılsın. Bu istiqamətdə olan maarifləndirmə siyasətinin əhali arasında düzgün qurulmaması sonda gətirib belə hallara çıxarır.

Burada da ən böyük zəhmət geniş auditoriyaya sahib olan KİV-in üzərinə düşür. Xüsusilə də televiziyalar bu yöndə maarifləndirməni gücləndirməlidirlər. Həmişə olduğu kimi, biz bu məsələdə də gecikirik. Bu virusun nələrə qadir olduğunu, yayılma ehtimalı və ondan qorunmanın yollarını biz peşəkarların dilindən eşitməliydik. Hətta yayıldığı ilk andan bunu etməliydik. Təəssüf ki, biz bu addımları xəstəlik qapımızı döyməyə başlayanda etdik. İnsanlara başa salmaq lazımdır ki, sənin uşağını məktəbdə qoruyurlarsa, evdə qorumaq sənin öhdənə düşür. Məktəbdən yayınıb, gedib başqa kütləvi yerlərdə bu xəstəliyə tutula bilmə risqini artırmaq olmaz. Ümid edirəm ki, bizdə bu xəstəliyə yoluxma halları heç qeydə alınmayacaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, fevralın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının Bakıda keçirilən VIII iclasında iki ölkə arasında iqtisadi əməkdaşlığın yüksək səviyyədə olduğu bir daha vurğulandı.**



# Kiçik dövlət Azərbaycan Türkiyədə 18, böyük Türkiyə Azərbaycanda 12,5 milyard?

## *Vüqar Bayramov: "Arada böyük fərqin olduğunu nəzərə alsaq, Türkiyə Azərbaycana yönəlik sərmayələrini artırmalıdır"*

Bu sahədə gələcək münasibətlərin daha da dərinləşdirilməsi üçün konkret addımlar atıldı. Belə ki, 14 sənəd - memorandum, saziş və protokol imzalandı. Mətbuata bəyanatla çıxış edən hər iki dövlət başçısı bir daha vurğuladı ki, Türkiyə və Azərbaycan öz gələcək işbirliyi, əməkdaşlığı haqqında çox ciddi qərarlar qəbul edib.

Prezident İlham Əliyev hazırda Azərbaycanda 4 minə yaxın Türkiyə şirkətinin fəaliyyət göstərməsini və onların 300-dən çox layihədə 16 milyard dollarlıq iş gördüklərini diqqətə çatdırdı. Dövlət başçısı onu da bildirdi ki, Azərbaycan da Türkiyə iqtisadiyyatının inkişafında yaxından iştirak edir. İndiyə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına 18 milyard, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12,5 milyard dollar sərmayə qoyub.

Görünən odur ki, Azərbaycan Türkiyədən qat-qat kiçik olmasına baxmayaraq, bu dövlətə daha çox sərmayə qoyub. Türkiyənin iqtisadi imkanlarının daha böyük olduğunu nəzərə alsaq, Azərbaycana qoyduqları 12,5 milyard dollar sərmayə elə də böyük deyil. Arada ciddi dizbalans var. Maraqlıdır, bu nədən irəli gəlir və bu fərqi necə azaltmaq olar?

*"Yaxşı olardı ki, qardaş ölkə Azərbaycanın qeyri-neft sektoruna daha çox sərmayə qoysun"*

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, Azərbaycan Türkiyənin enerji sektoruna daha böyük sərmayə qoyub: "Azərbaycan Türkiyə iqtisadiyyatına investisiya qoymaq baxımından ilk beşliyə daxildir. SOCAR Türkiyə iqtisadiyyatına ən çox sərmayə qoyan şirkətdir. Xüsusən də enerji layihələrinə yönəldilən investisiyaların həcmi Azərbaycanı Türkiyədə aparıcı investorlardan birinə çevirib. Artıq Azərbaycan investor ölkələrdən biridir. Ancaq arada böyük fərqin olduğunu nəzərə alsaq, Türkiyə Azərbaycana yönəlik sərmayələrini artırmalıdır.

Eyni zamanda, biz ölkə olaraq çalışmalıyıq ki, Türkiyədən daha çox investisiyanın cəlb olunmasına nail ola bilək. Çünki Türkiyənin özü praktik olaraq böyük investisiya imkanlarına malikdir. Xüsusən də yüngül sənaye və geyim məhsulları istehsalında Türkiyə müqayisəolunmaz üstünlüyə malik ölkələrdən biridir. Yaxşı olardı ki, qardaş ölkə Azərbaycanın qeyri-neft sektoruna daha çox sərmayə qoysun. Bir sözlə, qarşılıqlı investisiya qoyuluşu artmalıdır".

***Vidadi ORDAHALLI***

# Bəzi xəstəliklər üçün pulsuz dərmanların yoxa çıxdığı xəstəxana və poliklinikalar...

**Son bir ayda bir sıra xəstəliklərdən əziyyət çəkən insanların dövlət tərəfindən onlara pulsuz verilən dərmanları ala bilməməsi ilə bağlı şikayətlər var. Xəstələr deyirlər ki, yanvar ayında dövlətin onlara verdiyi pulsuz dərmanları maneəsiz alsalar da, fevral ayında qeydiyyatda olduqları poliklinikalardan onlara "dərman gəlmir, yoxdur" deyirlər.**



## ***Rəvanə İmanova:*** *"Keçən ay Səhiyyə Nazirliyi "AirFluSal" preparatını heç bir poliklinikaya verməyib"*

Xəstələrin bu dərmanları alarkən üzləşdikləri problemlər nə ilə bağlıdır? Əsas şikayətlərdən biri isə dərmanı almaq üçün xəstə insanların saatlarla növbəyə dayanmasıdır.

Qeyd edək ki, bir neçə il əvvəl də analoji problem yaşanmışdı. Xəstəxana və poliklinikalar bunu əsasən dərman çatışmazlığı ilə əlaqələndirirlər. Onlar bildirirlər ki, müxtəlif xəstəliklərdən əziyyət çəkən insanların çoxalması da problemin yaranmasına səbəb olur.

Bildirək ki, keçən dövrlərdə stasionarda müalicə alan bütün xəstələrə 166 adda dərman, həmçinin, şəkər xəstələri, I, II qrup əlillər, Qarabağ və Böyük Vətən Müharibəsi əlilləri və bu qisimdən olan digər xəstəliklərə görə 99 adda dərman preparatı pulsuz paylanmalıdır. Habelə onkoloji xəstəliyi, xroniki böyrək çatışmazlığı olanlara, hemofiliya və talassemiya irsi qan xəstəliklərində qan komponentləri, dərman preparatları və tibbi materiallar və digər ləvazimatlarla təminatı, QİÇS xəstələrinin müayinə və müalicəsi, vərəm xəstələri, ana və uşaqların sağlamlığının qorunması, yoluxucu xəstəliklər üzrə dərman vasitələri də əhaliyə pulsuz verilməli olanlar siyahısındadır.

Dövlətin pulsuz dərmanla təmin etdiyi astma xəstələri də dərman ala bilmirlər. Ən çox şikayət "AirFluSal" preparatı ilə bağlıdır.

Daimi oxucularımızdan biri, Səbayıl rayonundakı 33 saylı poliklinikada qeydiyyatda olan Mirzə Səfərov "Bakı-Xəbər"ə bildirdi ki, bronxit-astma xəstəliyindən əziyyət çəkir və qeydiyyatda olduğu poliklinikadan fevral ayına qədər "AirFluSal" adlı preparatı maneəsiz alsa da, fevral ayında poliklinikadan ona bu dərmanı verməyiblər. Şikayətçi qeyd edir ki, poliklinikadan ona "bu dərman gəlmir" deyirlər.

Məsələni araşdırmaq üçün 33 saylı poliklinikanın aptek şöbəsinin müdiri Rəvanə İmanova ilə əlaqə saxladıq. R.İmanova bizimlə söhbətində bildirdi ki, təkcə bronxit-astma xəstələri deyil, poliklinikada qeydiyyatda olan, digər xəstəliklərdən əziyyət çəkənlər də pulsuz dərman ala bilməyiblər. "Xəstənin şikayətilə bağlı deyim ki, keçən ay Səhiyyə Nazirliyi "AirFluSal" preparatını heç bir poliklinikaya verməyib. Biz fevral ayından icbari tibbi sığortaya keçmişik. Sığortanın da siyahısında o dərman yox idi. Bununla bağlı Səhiyyə Nazirliyinin "qaynar xətt"inə iki nəfər xəstəmiz müraciət edib, mən özüm də nazirliklə əlaqə saxlamışam, deyiblər ki, mart ayında veriləcək. O dərmanın martın 5-dən sonra veriləcəyini gözləyirik" - deyə R.İmanova bildirdi.

## *"Martın 5-dən sonra veriləcəyini gözləyirik"*

Onu da qeyd edək ki, Nazirlər Kabineti icbari tibbi sığorta ilə əlaqədar xidmətlər zərfini müəyyənləşdirib. Bu, Prezident İlham Əliyevin dekabrın 24-də imzaladığı "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli, 1718-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli, 1441-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli, 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli, 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Fərmanda əksini tapıb. Fərmana əsasən, Nazirlər Kabinetinə 10 gün ərzində xidmətlər zərfini müəyyən etmək tapşırılıb. Xidmətlər zərfi icbari tibbi sığortanın maliyyə mənbələri hesabına sığortaolunanlara müvafiq növdə, həcmdə və şərtlərlə göstərilən tibbi xidmətlərin toplusudur.

***İradə SARIYEVA***

# Kütləvi kitabxanaların müvəqqəti bağlanması - növbəti səmərəli antivirus tədbiri...

**Məlum olduğu kimi, koronavirus (COVİD - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə dövlət tərəfindən təxirəsalınmaz tədbirlər görülür. Artıq bir neçə həftədir koronavirus təhlükəsi ilə bağlı müxtəlif qurumlar və müəssisələrdə profilaktik tədbirlər həyata keçirilir.**



## ***Kərim Tahirov:*** *"Milli Kitabxananı bağlamaq fikrində deyilik, amma məhdudlaşdırıcı tədbirlər görürük"*

Bununla bağlı paytaxt kinoteatrlarına giriş məhdudlaşdırılıb, bəzi mədəniyyət tədbirləri təxirə salınıb.

Bildiyimi kimi, Nazirlər Kabineti tərəfindən yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi, ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə 2020-ci ilin mart ayının 3-dən 9-dək (ilk tədris günü mart ayının 10-u müəyyən edilir) təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılmasına və bununla bağlı tədbirlərin təxirə salınmasına dair qərar qəbul olunub.

Orta və ali məktəblərdə dərslərin təxirə salınması, eləcə də bəzi müəssisələrin fəaliyyətinin məhdudlaşdırılması o demək deyil ki, şagirdlər, tələbələr olaydan sui-istifadə edərək istədiyi yerə getsinlər. Əslində, bu qərarın qəbul olunmasında məqsəd insanların kütləvi yerlərdə görünməməsi, ev şəraitində olması ilə bağlıdır. İctimaiyyət içində olan insanların xəstəliyə tutulma və onu yayma imkanları daha böyükdür. Odur ki, şagirdlər də, tələbələr də kütləvi yerlərdə, tədbirlərdə, əyləncə yerlərində görünməməlidirlər. Həkimlərin verdiyi tövsiyələrə əməl etməlidirlər ki, virus təhlükəsi ilə qarşılaşmasınlar.

İnsanların, xüsusən də şagird və tələbələrin, elm adamlarının intensiv olaraq müraciət etdiyi məkanlardan biri kitabxanalardır. Kitabxanalarda əsas təmas kitablarladır və bir gündə eyni kitabı, qəzet və jurnalı, materialı bəzən yüzlərlə insan istifadə edə bilir. Həmçinin, kitabxanaların oxu zallarında insanlar bir-birilə təmasda olurlar. Bu virus da əsasən havadamcı yolu ilə yoluxur. Bu gün digər müəssisələrlə paralel olaraq kitabxanalarda da profilatik tədbirlər həyata keçirilməli, oxucularla bağlı ciddi məhdudlaşdırıcı tədbirlər görülməlidir. Hətta kitabxanaların da orta və ali məktəblər kimi müvəqqəti qapadılması zəruridir.

Koronavirus təhlükəsinin qarşısının alınması məqsədilə hansı kitabxanalar müvəqqəti olaraq bağlanacaq?

Paytaxtımızda fəaliyyət göstərən və ölkəmizin baş kitabxanası olan Milli Kitabxanaya müxtəlif kateqoriyalara aid oxucular sıx-sıx müraciət edirlər. Demək olar ki, bu kitabxanaya müxtəlif yaş qruplarına aid insanlar gəlirlər.

Milli Kitabxananın direktoru Kərim Tahirov "Bakı-Xəbər"ə bildirdi ki, Milli Kitabxananın müvəqqəti olaraq bağlanması gündəmdə deyil, amma müəssisədə müxtəlif məhdudlaşdırıcı tədbirlər həyata keçirilir. Hər gün Milli Kitabxananın bütün zallarının dezinfeksiya olunduğunu deyən K.Tahirovun sözlərinə görə, bu yaxında bir gün işçilər işə çıxmayacaq və həmin gün kitabxana aidiyyəti qurumun əməkdaşları tərəfindən dizenfeksiya ediləcək. "Bizə artıq göstəriş verilib və səhər saat 7-dən saat 10-a qədər bütün zallar, dəhlizlər, bir sözlə, hər yer dezinfeksiya olunub. Ümumiyyətlə, hər gün səhər-səhər bütün zalları xüsusi məhlulla dezinfeksiya edirik. Eyni zamanda, martın 8-i kitabxana birgünlük bağlı olacaq, işçilər işə gəlməyəcək və Səbayıl Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları gəlib kitabxananı tamamilə dezinfeksiya edəcəklər. Amma indi kitabxana özü edir. Milli Kitabxananı bağlamaq fikrində deyilik, amma məhdudlaşdırıcı tədbirlər görürük. Burada keçirilməsi nəzərdə tutulan tədbirlər təxirə salınıb. Martın 3-ü üç tədbirimiz vardı, hamısı təxirə salındı, ləğv olundu" - deyə K.Tahirov qeyd etdi.

## ***F.Köçərli adına Respublika Uşaq Kitabxanası:*** *"Bizim kitabxana işləyir"*

Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları da bizimlə söhbətlərində nazirlikdən koronavirusa qarşı karantin tədbirləri görülməsi ilə bağlı xüsusi göstəriş aldıqlarını bildirdilər. Kitabxananın əməkdaşlarının sözlərinə görə, hazırda kitabxanaya şagirdlər müraciət etməsə də, onlar iş başındadırlar. "Bizim kitabxana bağlanmayıb, yəni bağlanması haqqında söhbət getmir. Amma karantin tədbirləri ilə bağlı nazirlikdən təlimat almışıq. Dezinfeksiya işləri aparılacaq. Demək olar ki, son günlər kitabxanamıza uşaqlar müraciət etmir. Bu da məlum məsələ ilə bağlıdır. Bizim kitabxana işləyir, amma karantin tədbirləri görüləcək" - deyə bildirdilər.

***İradə SARIYEVA***

№ 39 (4170) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

4 MART 2020-ci il



# Bir ilin 18 saat olduğu planet...

**Alim-astronomlar bir ilin 18 saat olduğu ekzoplanet aşkarlayıblar.** Bu barədə Böyük Britaniyanın Uorik Universiteti məlumat yayıb. Astronomlar ölçüsü Yupiter qədər olan və öz ulduzu ətrafında 18 saata dövriyyə vuran ekzoplanet kəşf ediblər. Planetə "NGTS-10b" adı verilib. "NGTS-10b" Yer kürəsindən təxminən min işıq ili məsafəsində yerləşir. O, yalnız ölçüsü ilə deyil, həm də qaz tərkibinə görə Yupiterə oxşayır. Lakin Yupiterdən fərqli olaraq, bu ekzoplanet öz ana ulduzuna əhəmiyyətli dərəcədə daha yaxın məsafədə yerləşir. Elə bu səbəbdən də iki planet arasında ilin uzunluğunda bu qədər fərq var: 12 il 18 saata qarşı. "NGTS-10b"nin ulduza bu qədər yaxın olmasına görə orada temperatur min dərəcəyə çatır və planet günəşin güclü təsirindən məhvolma riski altındadır. Tədqiqatda həmin ekzoplanetdə rubin və sapfir kimi qiymətli daşlardan ibarət "yağışlar"ın da olduğu bildirilir.

## Dünyanın ən qorxunc xüsusi təyinatlıları...

**Dünyada elə ordular və ya qoşunlar var ki, onların adı gələndə düşmənləri istər-istəməz təşviş içində qalır. "Milli.Az" dünyaya şöhrətini yayan xüsusi təyinatlı dəstələrin siyahısını təqdim edir:**

1. Tayvan Xüsusi Təyinatlı Qüvvələri. 2. Peru Ordusu Xüsusi Təyinatlı Qüvvələri. 3. Kanada Anti-Terror Hücum Qüvvələri. 4. Alman Sualtı Komandosları. 5. ABŞ Xüsusi Təyinatlı Qüvvələri. 6. Danimarka Xüsusi Təyinatlı Qüvvələri. 7. Böyük Britanya Xüsusi Təyinatlı Qüvvələri. 8. Fransa Xüsusi Təyinatlı Qüvvələri. 9. ABŞ Xüsusi Əməliyyat Komandosları. 10. Alman Ordusu Xüsusi Təyinatlı Qüvvələri. 11. ABŞ Hərbi Dəniz Qüvvələri. 12. Serbiya Jandarm Qüvvələri. 13. Norveç Xüsusi Təyinatlı Qüvvələri. 14. Fransa Hərbi - Dəniz Qoşunu. 15. Koreya Xüsusi Təyinatlı Qüvvələri. 16. Rusiya Xüsusi Təyinatlı Qüvvələri. 17. Kanada Xüsusi Əməliyyat Komandası. 18. İrlandiya Ordu Keşikçiləri. 19. Yeni Zelandiya Xüsusi Təyinatlı Qüvvələri. 20. "Jaqdkommando" - Avstiriya Xüsusi Təyinatlı Qüvvələri. 21. Norveç Ordusu Xüsusi Təyinatlı Qüvvələri. 22. İraq Xüsusi Təyinatlı Qüvvələri. 23. Fransa Xüsusi Təyinatlı Qüvvələri. 24. İsrail Xüsusi Təyinatlı Qüvvələri. 25. Türkiyə Xüsusi Təyinatlı Qüvvələri - "Bordo Beretlilər".

## Altay dağlarında 1500 yaşlı qadın mumiyası tapıldı

**Monqolustanda maraqlı hadisə yaşanıb. "Milli.Az" xəbər verir ki, Altay dağlarında arxeoloji qazıntılar zamanı 1500 il bundan əvvəl yaşamış qadın mumiyası tapılıb.**

Türk qadının aid olduğu bildirililən mumya yaxşı qorunmuş vəziyyət qalıb. Ən maraqlısı isə 6-cı yüzillikdə yaşamış bu qadının geyimləri olub.

Məlumata görə, geyimlərdə xüsusi naxışların, bəzəklərin olması hələ o dövrdə Türk xalqlarının yüksək inkişaf etdiyindən xəbər verir.

Bu son illərin ən vacib tapıntılarından hesab edilir. Mumiya barədə araşdırmalar davam edir.

## "Azercell"dən gənclərə növbəti iş imkanı

**Həyata keçirdiyi korporativ sosial layihələri ilə hər zaman öncül sıralarda qərarlaşan "Azercell Telekom" MMC gənclərin təhsili, peşəkar inkişafı və işlə təmin olunması istiqamətində fəaliyyətini davam etdirir.**

Şirkət gənclərin əmək bazarına uyğunlaşmasına, öz ixtisasları üzrə uğurlu karyera qurmasına kömək, həmçinin, onların işlə təmin olunmasına dəstək məqsədilə növbəti əmək yarmarkasında iştirak edib. Beynəlxalq Miqrasiya Təşkilatı, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətləri və Beynəlxalq Təlim və Layihə Mərkəzi MMC-nin birgə təşkilatçılığı ilə Lənkəran və Qubada təşkil olunan əmək yarmarkalarına "Azercell" nümayəndələri də qatılıb. "Azercell" şirkətinin İnsan Kapitalının İdarə Edilməsi şöbəsinin əməkdaşları yarmarka iştirakçılarına əmək bazarındakı son tendensiyalardan bəhs edib, şirkətdə mövcud olan vakansiyalar barədə məlumat verib və onları maraqlandıran sualları cavablandırıb. Xatırladaq ki, layihə çərçivəsində gənclərin inkişafına istiqamətlənmiş müxtəlif fəaliyyət növləri - özünəməşğulluğa, əmək bazarına çıxışa dəstək, potensialın artırılması və digər məsələlər yer alıb.

Qeyd edək ki, "Azercell" mütəmadi olaraq müxtəlif təhsil müəssisələri, dövlət qurumları və digər təşkilatlar tərəfindən təşkil olunan karyera sərgilərində fəal iştirak edir. 2019-cu ildə ölkənin müxtəlif ali təhsil müəssisələrində oxuyan 67 gənc şirkətin tələbə proqramlarından yararlanıb, "Azercell" Akademiyası tərəfindən şirkətdaxili və müxtəlif təşkilat və qurumlara 161 tədris sessiyası keçirilib.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Şəki rayonu, Kiş kənd sakini Kərimov Məmmədrəsul Ələşrəf oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 974 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki-Baş Güngüt kənd sakini Yusubov Məmməd İsmayıl oğlunun adına verilmiş torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız hesab edilir.

Rzayev Rəhim Əli oğluna Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin kənd təsərrüfatı müəssisəsi tərəfindən verilmiş N61/K nömrəli, 27 noyabr 2003 cü il tarixli əmrdən çıxarış itdiyi üçün etibarsız sayılır.

Rzayev Rəhim Əli oğlunun adına, Abşeron rayonu icra üzrə 096 nömrəli, 20 avqust 1999-cu il tarixli sərəncamdan çıxarış itdiyi üçün etibarsız sayılır.

Səfərov Rəşid İsmixan oğluna Azərbaycan Respublikası DİN tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi (N012680) itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Söhbətlərdə dəqiqlik və müəyyənlik, reaksiyalarda konkretlik gözləməyin. Vədlərin çoxu yerinə yetirilməyəcək, sizə diqqət nişanələri azalacaq. Özünüzü rahat və təhlükəsiz hiss edəcəyiniz məkanı seçin.



**Buğa** - Səhər saatlarından etibarən işlərdə müəyyən kurs və ya istiqamət yoxdur. Bir qədər sonra tonusla nikbinliyi bərpa edin. Günün ikinci yarısına yaxın axınla hərəkət edin. Təkbaşına çalışın, müstəqil olun.



**Əkizlər** - Əgər hər şeyi dürüst etsəniz, perspektivlər güclənəcək, münasibətlərin yeni məqamları görünəcək. Axşam saatlarında istirahəti təxirə salmayın, qüvvənizi bərpa edin. Planlarınızı götür-qoy edin.



**Xərçəng** - Sakit, aramla, soyuqqanlı şəkildə çalışın. Ətrafdakıların əsəbləri ilə oynamasanız, ciddi heç nə baş verməyəcək. Çoxdan bəri planlaşdırdığınız işi görmək üçün yaxşı vaxtdır.



**Şir** - Situasiyalar maraqlıdır, amma birmənalı deyil. Təfərrüatları dəqiqləşdirin, mütəxəssislərlə məsləhətləşin. Bütün problemlərə rəğmən planlarınızda olan işləri görün, nikbin davranın.



**Qız** - Başqalarının yaşamına, işlərinə qəfil müdaxilə etməyin. Təklif olmadan kimsənin problemlərinin həllinə can atmayın. Əks təqdirdə, çoxsaylı problemlərlə qarşılaşacaq, onları həll etmək məcburiyyətində qalacaqsınız.



**Tərəzi** - Gərginlik artır. İlk növbədə, səhhətinizi qoruyun, qüvvənizi qənaətlə xərcləyin. Münasibət və işlərdəki incə müvazinəti pozmayın. İşlərinizi axardan çıxarmamaq üçün yanlış addımlar atıb tələsik qərarlar verməyin.



**Əqrəb** - Gərgin gün olacaq. Çox çalışmalısınız. Buna görə də əlavə iş və ya sifarişə razılaşmayın. Passiv olmayın, başqalarının sizin maraqlarınızı tapdamasına və ya mənafe dairənizi zəbt etmələrinə imkan verməyin.



**Oxatan** - Səhər saatlarından etibarən fəal çalışın. İşlərdə problemlər olsa da, ruhdan düşməyin. Çox işə başlayıb hər işdən qalmayın. Diqqətinizi bütünlüklə həll etməyə çalışdığınız məsələyə yönəldin.



**Oğlaq** - Dəvət aldığınız tədbirə qatılın. Ailə üzvlərindən biri ilə münasibətlərin aydınlaşdırılması istisna deyil. Peşəkar fəaliyyətiniz və ya başqa məqamlarla bağlı məlumatlar karınıza gələ bilər.



**Dolça** - Prosesin istədiyiniz intensivlik və məcrada olmadığı yerdə keçmişdən yapışıb qalmayın. İddiaların bəzilərindən əl çəkmək və ya nəyisə itirməklə barışmaq gərəkdirsə - təraddüd etməyin.



**Balıqlar** - Ən kiçik impulslar, kənar amillər, üzə çıxan sirlər, faş olan mübhəmlər günün axarını çətinləşdirə bilər. Qarşılıqlı anlaşmanı pozmayın, münasibətlərdə inciklik və sərinləşməyə imkan verməyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## İsraildə nəfəs almayan parazit kəşf edildi



**İsraildən olan elm adamları nəfəs almayan parazit kəşf ediblər.**

"Milli.Az" xəbər verir ki, balıq paraziti olan "salminikola" adlı canlının nəfəs yollarının olmadığı sübuta yetirilib. Araşdırmanın nəticələrinə görə, parazitin "DNT"si digər canlılardan önəmli dərəcədə fəqlənir. Maraqlıdır ki, parazitin "DNT"sində ciddi çatışmazlıqlar var. Alimlər yeni canlı barədə araşdırmaları davam etdirir. Bu kəşf elm dünyasında böyük maraqla qarşılanıb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.